№ 06 (1001) 8-14 fevral 2018-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Azərbaycan ilə ABŞ arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da ABŞ Dövlət katibi müavininin müşaviri xanım Bricet Brinki qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Azərbaycanın həyata keçirdiyi qlobal layihələrə toxunan Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" layihəsinə ABŞ-ın verdiyi dəstəyin önəmini vurğuladı. Dövlətimizin başçısı ABŞ Dövlət katibi müavininin müşaviri Bricet Brinkin ölkəmizə səfərinin əlaqələrimizin perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirmişdir.

Bricet Brink ABŞ rəhbərliyinin "Cənub Qaz Dəhlizi" layihəsinə dəstək verdiyini vurğuladı. O, ABŞ-ın ölkəmizin təhlükəsizlik sahəsində əməkdaşlığa, o cümlədən Əfqanıstandakı sülhməramlı əməliyyatlara verdiyi töhfəni yüksək qiymətləndirdiyini bildirmişdir.

Görüşdə Azərbaycan ilə ABŞ arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə edildi, bu yaxınlarda istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolunun önəmi qeyd olundu, bunun Avropa ilə Asiya arasında yeni nəqliyyat marşrutu olması baxımından önəmi vurğulandı, ABŞ şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyəti, ticarət dövriyyəsinin artırılması və ixrac imkanlarının genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

## Mersi Tembo: Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinin təmin edilməsi və iqtisadi inkişafın əldə olunması əhalinin rifah halını yaxşılaşdırır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonu qəbul edib.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon Azərbaycanda iqtisadi sahədə əldə edilmiş nailiyyətlər, həyata keçirilmiş uğurlu islahatlar münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırmışdır. Xanım Mersi Tembon bütün bu müsbət proseslərdə təmsil etdiyi qurumun ölkəmizlə əməkdaşlığından məmnunluq hissi keçirdiyini bildirmişdir. O, Azərbaycanda əldə olunan bu nailiyyətlərdən insanların faydalandığının şahidi olduqlarını demiş və qeyd etmişdir ki, iqtisadiyyatın şaxələndirilməsinin təmin edilməsi və iqtisadi inkişafın əldə olunması əhalinin rifah halını yaxşılaşdırır.

Dövlətimizin başçısı son illər Azərbaycanda iqtisadi inkişafın yaxşı nəticələr verdiyini vurğulamış, bildirmişdir ki, bu, özünü həm makroiqtisadi sahədə, həm real sektorun və eyni zamanda, qeyri-neft sektorunun inkişafında göstərib. O, qeyd etmişdir ki, ötən il ölkəmizdə 177 min daimi iş yeri yaradılıb ki, bu da rekord göstərici olub. Qeyri-neft sektorunda 3 faizə yaxın artımın olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə nəhəng infrastruktur layihələrinin uğurla həyata keçirildiyini bildirmişdir. Dövlətimizin başçısı bütün bu iqtisadi nailiyyətlərin, öz növbəsində, ölkəmizin davamlı inkişafı və ictimai-siyasi sabitliyin təmin olunması işinə xidmət etdiyini vurğulamışdır. Azərbaycanın iqtisadi inkişafının Davos İqtisadi Forumunun hesabatlarında da öz əksini tapdığını qeyd edən Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək dünya miqyasında 35-ci yeri, eyni zamanda, ölkəmizin inkişaf etməkdə olan ölkələr sırasında inklüziv inkişaf indeksinə görə 3-cü yeri tutmasını məmnunluqla vurğulamışdır.

## Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq qərara alıram:

1. Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.
2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2018-ci il aprelin 11-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 fevral 2018-ci il**



# Avropa İnvestisiya Bankı TAP layihəsinə 1,5 milyard avro kredit ayrılmasını təsdiqləyib




Avropa İnvestisiya Bankı (EIB) Azərbaycan təbii qazını Avropaya daşıyacaq "Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsinə 1,5 milyard avro kredit ayrılmasını təsdiqləyib.

Bu barədə EIB məlumat yayıb. Bildirilir ki, ətraflı müzakirələr aparıldıqdan sonra bankın İdarə Heyəti Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın təbii qaz şəbəkəsinə qoşulmaq üçün Cənubi İtaliya sahillərinə çıxan TAP boru kəməri üçün 1,5 milyard avro məbləğində maliyyələşdirməni təsdiqləyib. Layihə Cənub Qaz Dəhlizinin bir hissəsidir və Avropa İttifaqının enerji siyasəti çərçivəsində strateji cəhətdən əhəmiyyətli bir komponent kimi, Avropa Şurası, Avropa Komissiyası və Avropa Parlamenti tərəfindən müəyyən edilən təşəbbüsdür.

Qeyd edək ki, TAP qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 65 faizi yekunlaşıb. Yanvarın ortasına boru kəməri marşrutu üzrə Yunanıstanda 518 kilometr ərazi təmizlənib, 473 kilometr boru xətt boyunca düzülüb, 457 kilometr boru qaynaqlanıb və 265 kilometr torpaq örtüyü əvvəlki vəziyyətinə gətirilib. Albaniyada isə boru kəməri marşrutu boyunca 168 kilometr ərazi təmizlənib, 163 kilometr boru xətt boyunca düzülüb, 157 kilometr borunun qaynağı tamamlanıb, həmçinin 116 kilometr torpaq örtüyü əvvəlki vəziyyətinə gətirilib. Boru kəmərinin 765 kilometrlik Yunanıstan və Albaniya hissəsində 687 kilometrlik ərazi, yəni 90 faizi tamamilə təmizlənib və qiymətləndirilib. Bundan əlavə, marşrut üzrə boruların 80 faizi qaynaq edilib, Yunanıstan və Albaniyada 500 kilometr boru torpağa basdırılıb.

Boru kəmərinin Adriatik dənizindən keçəcək 105 kilometrlik hissəsinin tikintisini həyata keçirəcək İtaliyanın "Saipem S.p.A" şirkəti hazırda mikrotunel sahələrində çalışır. Burada müvəqqəti yol və sahə hazırlığı tamamlanıb.

TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

# Azərbaycan Dünya Bankının institusional təcrübəsindən faydalanacaq




Mərkəzi Bankın sədri Elman Rüstəmovun Dünya Bankının (DB) Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə Dünya Bankının ölkəmizdəki fəaliyyəti, mövcud layihə portfeli, həmçinin Dünya Bankının Azərbaycan ilə Ölkə Tərəfdaşlıq Strategiyası çərçivəsində əməkdaşlığın yeni perspektiv istiqamətləri müzakirə olunub.

Mərkəzi Bankın mətbuat xidmətindən bildiriblər ki, nümayəndə heyətinin rəhbəri xanım Mersi Tembon Dünya Bankı ilə Azərbaycan Respublikası arasında 25 illik əməkdaşlıq ərzində həyata keçirilmiş layihələr zamanı əldə edilmiş nəticələr, qazanılmış təcrübə, göstərilən xidmətlərin önəmini xüsusi olaraq vurğulayıb. Ölkədə dayanıqlı inkişafa nail olunmasında Azərbaycan Hökumətinin apardığı strateji iqtisadi islahatların əsas istiqamətlərini təqdirəlayiq hesab edən xanım Tembon bu məqsədlə görülən tədbirlərin Dünya Bankı tərəfindən dəstəkləndiyini qeyd edib. O, Dünya Bankının Azərbaycanda fəaliyyətinin uğurla davam olunmasında göstərdiyi dəstəyə görə Mərkəzi Bankın sədrinə öz təşəkkürünü bildirib.

Azərbaycanın DB ilə əməkdaşlığının yüksək səviyyədə olduğunu vurğulayan sədr E.Rüstəmov ölkədə makroiqtisadi sabitlik, qeyri-neft sektorunun inkişafı, ölkədə maliyyə sabitliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərə dair ətraflı məlumat verib. E. Rüstəmov qlobal iqtisadi mühit və regional çağırışlar fonunda Azərbaycanın DB ilə əməkdaşlığının da dərinləşəcəyinə və ölkəmizin DB-nin institusional təcrübəsindən faydalanacağına ümidli olduğunu deyib.

Görüşdə Mərkəzi Bank ilə Dünya Bankı arasında əməkdaşlığın gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Pekində Azərbaycan-Çin biznes-forumu keçirilib




İqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərliyi ilə rəsmi şəxslərdən və iş adamlarından ibarət nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri çərçivəsində fevralın 6-da Pekində Azərbaycan-Çin biznes-forumu keçirilib. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Çinin Kommersiya Nazirliyi və Beynəlxalq Ticarətin Təşviqi üzrə Çin Şurasının birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə sənaye, tikinti, nəqliyyat, logistika, investisiya, kimya, tekstil və s. sahələrdə fəaliyyət göstərən iş adamları iştirak edib.

Biznes-forumda çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycanın Çin ilə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verdiyini, əməkdaşlığın bütün sahələrdə genişlənməsində maraqlı olduğunu vurğulayıb. Bildirilib ki, Azərbaycan və Çin dövlət başçıları arasında mövcud olan fəal siyasi dialoq ikitərəfli əlaqələrin iqtisadi, humanitar və digər sahələrdə inkişafı üçün möhkəm təməldir. Nazir Şahin Mustafayev bildirib ki, "Kəmər və Yol" təşəbbüsü çərçivəsində "Trans-Xəzər Şərq-Qərb Ticarət və Tranzit Dəhlizi"nin potensialından istifadə iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit sahəsində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaradır. 2017-ci ildə Azərbaycanın Çinlə ticarət dövriyyəsinin 43 faiz artaraq 1,2 milyard ABŞ dolları təşkil etdiyini, bu ölkəyə ixracın 2,1 dəfə artdığını diqqətə çatdıran iqtisadiyyat naziri ticarət dövriyyəsinin artırılması üçün böyük potensialın olduğunu deyib. Vurğulanıb ki, dünən Pekində Azərbaycanın Ticarət Nümayəndəliyinin ofisinin açılması ölkələrimiz arasında ticarət həcminin artırılması, investisiya əməkdaşlığının genişləndirilməsində əhəmiyyətli olacaq.

2016-cı və 2017-ci illərdə Çinə 3 ixrac missiyası təşkil edilib, Azərbaycan məhsulları Çində keçirilmiş 2 sərgidə "Made in Azerbaijan" vahid ölkə stendi ilə nümayiş olunub. Azərbaycan bu il Çində keçiriləcək daha 3 sərgidə iştirak edəcək. Hazırda Şanxay Beynəlxalq Ticarət Əməliyyat Mərkəzində "Azərbaycan Şərab Evi"nin açılmasına dair danışıqlar aparılır. Bundan başqa, Çin iş adamlarının Azərbaycanda qeyri-neft sektoruna sərmayə yatırması üçün geniş imkanlar var. Azərbaycanda Çin investisiyalı 113 şirkətin qeydiyyatdan keçdiyini və bu şirkətlərin tikinti, sənaye, kənd təsərrüfatı, rabitə, xidmət, ticarət və s. sahələr üzrə fəaliyyət göstərdiyini diqqətə çatdıran nazir Şahin Mustafayev Azərbaycan iqtisadiyyatı, ölkəmizdə həyata keçirilən islahatlar, Azərbaycanın investisiya cəlbediciliyi barədə məlumat verib.

Tədbirdə "Ekspo 2025" Sərgisinə Bakının namizədliyi ilə bağlı videotəqdimat nümayiş olunub.

Tədbir çərçivəsində Azərbaycanın "AS Group Investment" şirkəti və Çinin "Camce Co Ltd" şirkəti arasında qarşılıqlı əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

# "Azad iqtisadi zonanın yaradılması Azərbaycanı böyük iqtisadi mərkəzə çevirəcək"



Nəhəng iqtisadi mərkəzi yaratmaq üçün hüquqi baza ilə yanaşı, ölkənin beynəlxalq aləmdə böyük siyasi nüfuza sahib olması zəruridir. Çünki investorların təhlükəsizlik baxımından ölkəyə inamı olmalıdır. Bunun üçün ölkədə ictimai-siyasi sabitlik vacibdir. Bu kimi meyarlar ölkəmizdə tam şəkildə mövcuddur. Bu səbəbdən xarici iş adamları sərmayələrini ölkəmizə gətirməyə tərəddüd etmirlər.

Bu fikirləri Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputat bildirib ki, hazırda "Ələt azad iqtisadi zonası haqqında" qanun layihəsi Milli Məclisin təbii ehtiyatlar, energetika və ekologiya, hüquq siyasəti və dövlət quruculuğu və iqtisadi siyasət, sənaye və sahibkarlıq komitələri tərəfindən hazırlanır. Bundan başqa, azad iqtisadi zonanın yaradılması istiqamətində kadrların hazırlanması ilə bağlı addımlar atılır. Peşə təhsilinin təkmilləşdirilməsi müasir texnologiyalarla işləyən yüksək peşəkar kadr hazırlanmasına hesablanıb.

Azad iqtisadi zonanın məhz Ələt qəsəbəsində salınmasının səbəblərindən danışan Milli Məclisin deputatı bildirib ki, Ələt qəsəbəsi coğrafi mövqe baxımından bu iqtisadi mərkəz üçün əlverişlidir. Belə ki, burada dəmir yolu, magistral yol, eyni zamanda, dəniz nəqliyyatı mərkəzləri mövcuddur. Həmçinin, Şimal-Cənub və Şərq-Qərb tranzit yolları Ələtdən keçir. Ərazidə böyük nəqliyyat infrastrukturunun qurulduğunu bildirən A.Hüseynov yaxın gələcəkdə burada hava limanının inşasının da nəzərdə tutulduğunu qeyd edib. O bildirib ki, Azərbaycanda azad iqtisadi zonanın yaradılması zamanı Çin, Koreya Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə və Avropa təcrübəsindən istifadə olunacaq.

Azərbaycanın iqtisadi inkişafı ölkəmizi regionun əsas güc mərkəzinə çevirib.

Bu gün Azərbaycanın iştirakı olmadan regionda heç bir iqtisadi layihə həyata keçirilmir. Region üçün mühüm əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan, Bakı Tbilisi Ərzurum, Bakı-Tbilisi-Qars kimi layihələr reallaşdırılıb. TANAP, TAP layihələrinin həyata keçməsi üçün işlər davam etdirilir. Bundan başqa, Azərbaycan artıq kosmik ölkələr sırasına qoşulub. Regionda ölkəmizin iştirakı ilə ən müasir kommunikasiya və texnologiyalar istifadəyə verilib.

# Azərbaycanda 5 sənaye parkı, 4 sənaye məhəlləsi yaradılıb



Bu barədə iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib.

Nazir müavini qeyd edib ki, Azərbaycanda çox güclü sənaye potensialı var. İqtisadiyyat Nazirliyi hazırda 2018-ci ildə istehsala başlayacaq "SOCAR Polymer" layihəsinin məhsulları üçün potensial istehlakçı axtarır. Artıq 15 şirkətlə danışıqlar aparılır. "Sumqayıt Kimya Sənaye Parkında 15 rezident var, bu günlərdə daha 1 rezident qeydiyyata alınıb", - deyə N.Səfərov diqqətə çatdırıb.

O, həmçinin qeyd edib ki, bu il 180 min ton istehsal gücünə malik polipropilen və 120 min ton gücə malik Yüksək Sıxlıqlı Polietilen zavodlarının istehsala başlayacaq.

Nazir müavini qeyd edib ki, istehsal ediləcək məhsulların 70 faizi ixraca yönəldiləcək. Bu layihə Azərbaycanda kimya sənayesinin inkişafında lokomotiv rolu oynayacaq ki, bu da kiçik və orta sahibkarlığa təsir baxımından çox önəmlidir.

# AZƏRBAYCANDA İNNOVASİYA İQTİSADİYYATININ FORMALAŞDIRILMASI VƏ İNKİŞAFI PROBLEMLƏRİ

Yaxın vaxtlara qədər “innovasiya iqtisadiyyatı” anlayışı işlədilmirdi. Azərbaycanda “innovasiyalı inkişaf”, “innovativ iqtisadiyyat”, “innovasiya yönümlü iqtisadiyyat” ifadələrindən geniş istifadə edilirdi.

Lakin inkişaf etmiş ölkələrin iqtisadiyyatı göstərdi ki, artıq yeni iqtisadiyyat olan innovasiya iqtisadiyyatı formalaşmışdır. Bununla paralel, innovasiya iqtisadiyyatı elmi də yaranmışdır. **İnnovasiya iqtisadiyyatı** – bu, elə yeni bir elm sahəsidir ki, innovator tərəfindən icad edilən yüksək texnologiyaların, avadanlıqların, idarəetmə sistemlərinin yaradılmasını, cəmiyyət qarşısında yaranan problemlərin həll edilməsinə istiqamətləndirə bilən kadrların hazırlanmasını əhatə edir.

İnnovasiya iqtisadiyyatının predmeti innovasiya fəaliyyətinin müxtəlif mərhələlərini əhatə edən innovasiya prosesidir ki, bu da innovasiya məhsulunun yaradılması, tətbiqi və yayılması ilə əlaqədardır. Bu isə yeni texnoloji ukladın formalaşmasını təmin edir.

Bir elm kimi innovasiya iqtisadiyyatının əsas vəzifəsi innovasiya məhsulunun yaradılması və tətbiqi, əsas istehsal amillərinin intellektuallaşdırılması, təbiət və cəmiyyətin ahəngdar və ziddiyyətsiz inkişafını təmin edən, yeni müasir texnoloji uklada keçməklə əlaqədar olan bütün təsərrüfatçılıq fəaliyyətində insanlar arasındakı münasibətləri öyrənməkdir.

İnnovasiya iqtisadiyyatının funksiyaları olduqca əhatəlidir və bunlardan ən əsasları dünyagörüşü, innovasiya, sosial proqnozlaşdırma, sistemlilik, maarifləndirmə, ekoloji, strateji informasiya, kommunikasiya, innovasiya fəaliyyəti, hüquqi, intellektual, investisiya və təşkilati idarəetmədir.

İnnovasiya iqtisadiyyatı məlum inkişaf mərhələlərini keçdiyindən ona baxışlar yekdil deyildir. Təbii ki, bu, belə də olmalıdır. Hər bir tarixi dövrün öz tələbləri var, belə ki, ölkələrin iqtisadiyyatının, bütövlükdə dünya iqtisadiyyatının inkişafı baxılan mərhələyə uyğun məzmun formalaşdırır.

İnnovasiya iqtisadiyyatının formalaşmasının birinci mərhələsi sənayecə inkişaf etmiş (postindustrial) ölkələrin konsepsiyası hesab edilə bilər. Bu, XX əsrin II yarısından yayılmağa başlamışdır. İlk növbədə, bu anlayış D.Bell, C.Qelbreyt və Tofflerin əsərlərində öz əksini tapmışdır. Son bir neçə onillikdə iqtisadiyyatın inkişafında köklü dəyişikliklər getmişdir. Yeni texnologiyaların inkişafı ilə əlaqədar olaraq cəmiyyətin iqtisadi həyatının bütün sahələrində prinsipial dəyişikliklər baş vermişdir:

- iqtisadiyyatda innovasiya-informasiya sektorunun xüsusi çəkisi dəfələrlə artmış və inkişaf etmiş ölkələrdə bu göstərici 45-65% -ə çatmışdır;
- innovasiya-informasiya sektoru müasir sosial-iqtisadi inkişafa, onun dinamikasına və artımına güclü təsir göstərmişdir;
- iqtisadi tərəqqinin mexanizmində və inkişafında ciddi dəyişikliklər nəzərə çarpmışdır.



Qeyd edilən dəyişikliklərin əsasında insan kapitalı durur. İnsan kapitalı təkcə insanın malik olduğu elmin, qabiliyyətin, davranışın, bacarığın mexaniki toplusu deyildir. Bu, insanın yaradıcılıq potensialıdır ki, innovasiya təfəkkürünün formalaşdırılması və fəaliyyəti hesabına son nəticədə iqtisadiyyatın innovasiya inkişafının yönümünü müəyyən edir.

Artıq elə bir vaxt gəlmişdir ki, innovasiya təhsilinin köməyilə innovasiya təfəkkürünün formalaşdırılması həyata keçirilir. Bununla əlaqədar olaraq, insanların öyrədilməsi prosesini peşəkarlıq səriştəsinin inkişafını təmin edən pedaqoji innovasiyanın yaradılmasına yönəltmək lazımdır. Bu vəzifələrin yerinə yetirilməsi aşağıdakıları zəruri edir:

- mənəvi-əxlaqi tərbiyənin verilməsi;
- peşəkarlıq səriştəsinin formalaşdırılması;
- innovasiya yaratmaq qabiliyyəti;
- innovasiya mədəniyyətinin inkişaf etdirilməsi;
- fəal innovasiya fəaliyyətinin motivləşdirilməsi;
- işgüzarlıq və bizneslə məşğul olmaq qabiliyyətinin formalaşdırılması və s.

Beləliklə, insan kapitalı ölkənin milli varidatının ən əsas elementlərindən biridir, onun köməyilə innovasiya iqtisadiyyatı həyata keçirir.

İnsan kapitalı, eyni zamanda, cəmiyyətin və iqtisadiyyatın inkişafının intensiv amilidir. Burada təkrar istehsal kapitalı, intellektual kapital və innovasiya səriştəliliyi haqqında qısaca məlumat vermək yerinə düşər.

İnnovasiya iqtisadiyyatında təkrar istehsal kapitalının yaradılması aşağıdakı mərhələlərdən keçir:

- intellektual məhsulun istehsalını həyata keçirməyə imkan yaradan yeni elm insan tələbatının ödənilməsi üçün təkrar istehsal prosesi məqsədini güdür;
- innovasiyanın yaradılması və maddiləşdirilməsini təmin edən innovasiya prosesinin əsasında innovatorların motivləşdirilməsi durur;
- intellektual kapitaldan istifadə insan həyatını yaxşılaşdıran və onun təbiətlə ahəngdarlığını təmin edən təkrar istehsal prosesinin məqsədidir.

İntellektual kapital – bu anlayış müəssisənin qeyri-material aktivlərini ifadə edir ki, bunsuz o, mövcud ola bilməz. İntellektual kapitalın tərkibinə insan aktivi, intellektual mülkiyyət, infrastruktur və bazar qeyri-maddi aktivləri aid edilir.

İnsan kapitalının əsas peşəkarlığını büruzə verməsi innovasiya səriştəliliyində öz əksini tapır.

İnnovasiya iqtisadiyyatı elə bilik cəmiyyətinin yekunudur ki, fundamental elmi nəticələrin dəyişdirilməsi hesabına innovatorlar innovasiya (yenilik) icad edərək, onları təsərrüfatlarda, müəssisələrdə, sahələrdə, dünya ölkələrində tətbiq etməklə qeyd edilən obyektləri inkişaf etdirir, nəticədə intellektual renta mənimsəyirlər və çox böyük mənfəət qazanırlar.

Bu tərif innovasiya iqtisadiyyatının təcrübi mənasını əks etdirir.

İnnovasiya iqtisadiyyatının inkişaf səviyyəsi və vəziyyətinin qiymətləndirilməsi üçün onun meyarlarının müəyyən edilməsi xüsusi əhəmiyyət kəsb edir. Onlar innovasiya iqtisadiyyatının inkişafını, problemin səmərəli həll edilməsini, insan həyatının keyfiyyətini, inkişafını, təbiət və ətraf mühitin qorunmasını, istehsalın elmtutumluluğunu, məhsuldar qüvvələrin intellektuallıq baxımından innovasiya səriştəliliyi kimi göstəricilərinin vəziyyətini müəyyən edir.

İqtisadi təcrübədə hal-hazırda elmi mənbələrdə innovasiya iqtisadiyyatının əsas meyarı kimi məcmu daxili məhsul (MDM) göstəricisindən istifadə edilir.

Bu, ümumi məhsulda müvafiq olaraq elmtutumlu məhsul və xidmətlərin xüsusi çəkisidir. MDM-ə onun yaradılmasında iştirak edən amillərin nəticəsi kimi baxıla bilər. Bu amillərə aşağıdakılar aiddir: təbii ehtiyatların kəmiyyət və keyfiyyəti, onların istifadəyə yararlılığı, əsas kapitalın həcmi və keyfiyyət parametrləri, mövcud istehsal amillərinin milli iqtisadiyyat çərçivəsində maksimum yüksək keyfiyyətli məhsul olmaq üçün optimal bölüşdürülməsi.

Qeyd edilən meyarlarla yanaşı, innovasiya iqtisadiyyatının aşağıdakı meyarları da öz əhəmiyyətinə görə seçilirlər:

- resurs – ekoloji problemlərin həllinə istiqamətlənmə;
- innovasiya tərkibli məhsuldar qüvvələrin səviyyəsi;
- sosial-iqtisadi münasibətlərin intellektləşdirilməsi dərəcəsi.

Bilik cəmiyyətin inkişafı şəraitində innovasiya iqtisadiyyatının təşəkkülü, elm və istehsal subyektlərinin innovasiya fəaliyyətinin aparıcı qüvvəsi, elmi-texniki inkişafın, elmtutumlu texnologiyaların yüksəlməsi, innovasiyalar sahəsində yeni texnoloji ukladı formalaşdıran istehsal amillərinin intellektuallaşdırılması ilə xarakterizə olunur.

İnnovasiya iqtisadiyyatının müxtəlif cəhətlərini özündə əks etdirən innovasiya generasiyası (icad edilməsi), innovasiya fəaliyyəti, innovasiya iqtisadiyyatı infrastrukturunun formalaşdırılması, yeni texnoloji ukladla əlaqədar olan müəssisələrin öyrənilməsi olduqca əhəmiyyətlidir.

**Albert Tağıyev,**
**Sumqayıt Dövlət Universitetinin dosenti,**
**Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki**

# “Azərişıq” ASC-də regionların sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 29-da keçirilmiş “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda ölkə başçısının nitqindən irəli gələn vəzifələrlə əlaqədar “Azərişıq” ASC-də iclas keçirilib.



ASC-dən bildirilib ki, iclasda Səhmdar Cəmiyyətin sədri Baba Rzayev bildirib ki, dövlət başçısının elektroenergetika sahəsinə xüsusi diqqəti sayəsində 2003-cü ildən respublikanın generasiya gücü fantastik həddə çatdırılıb - 3000 MVA artırılıb. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramında qeyri-neft sektorunun inkişafına yönəlmiş sosial, iqtisadi, sənaye, kənd təsərrüfatı, turizm və digər sahələrin xüsusi yer tutduğunu B.Rzayev həmin sahələrin elektrik enerjisi ilə təchiz edilməsi üçün təxirəsalınmaz işlər görüldüyünü vurğulayıb. “Sırf kənd təsərrüfatının inkişafına yönəlik Hacıqabul, Goranboy, Salyan rayonlarında 110 və 35 kilovoltluq (kV) yarımstansiyalar tikilib və yüksəkgərginlikli hava xətləri çəkilib. Eyni zamanda, Ağcabədi, Biləsuvar, İmişli, Kürdəmir, Qobustan, Şabran, Şəmkir, Tovuz, Yevlax, Ucar, Füzuli və Goranboy rayonlarının ərazilərində yaradılan 14 ədəd yeni aqroparkın elektrik təchizatını həyata keçirmək üçün hazırlıq işləri tam başa çatdırılıb. Bu gün regionlarda 9 minə yaxın meliorasiya, su təsərrüfatına aid nasosxana və subartezian quyuları var ki, onların elektrik enerjisi ilə təchizatı üçün qısa müddətdə lazımi bütün tədbirlər görülür, yeni komplekt transformator məntəqələri qurlaşdırılır və təmir olunur, hava xətləri yenilənir”, - deyə ASC sədri bildirib.

B.Rzayev, həmçinin “Azərişıq” ASC yaradıldıqdan sonra regionların sosial-iqtisadi inkişafı, istehlakçıların keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi üçün görülən işlərin statistikasını açıqlayıb. Bildirib ki, bölgələrdə 18 ədəd 110 kV-luq, 64 ədəd 35 kV-luq yarımstansiya tikilərək yenidən qurulub. Regionlardakı yarımstansiyaların əksəriyyətində idarəetmənin təkmilləşdirilməsi və çevikliyin artırılması məqsədilə SCADA dispetçer idarəetmə mərkəzi yaradılıb. Üç mindən artıq yeni 10-6 kV-luq TM və KTM quraşdırılıb. İyirmi min kilometrə yaxın müxtəlif gərginlikli elektrik verilişi xətti çəkilib, 350 min ədədə yaxın dayaq basdırılıb, 300 min elektron tipli sayğac quraşdırılıb. Abonentlərin enerji uçotuna dair məlumatlarının şəffaflığını təmin etmək məqsədilə Rayon Elektrik Şəbəkələrinin inzibati idarələrinə 155 kilometrdən çox optik-kabel çəkilərək mərkəzi idarəetmə sistemi qurulub. Respublikanın 512 kənd və qəsəbəsinin elektrik təchizatı tamamilə yenidən qurulub, hazırda 180 kənd və qəsəbədə yenidənqurma işləri aparılır. Respublika üzrə elektrik şəbəkələrinin qoyuluş gücü “Azərişıq” ASC-nin yarandığı 2015-ci ilin əvvəlində 9 500 MVA-dan, bu günə qədər 12 min MVA-yadək yüksəldilib. Silsilə və kompleks tədbirlər hesabına “Azərişıq” ASC-nin regional elektrik şəbəkələrində texniki itkilər 15,1 faizdən 10,1 faizə endirilib. Faydalı elektrik enerjisinə görə yığım respublika üzrə 91,6 faiz, regionlar üzrə isə 85 faiz təşkil edir. Təqdirəlayiq haldır ki, artıq “Azərişıq” ASC-dən alınan faydalı elektrik enerjisinin dəyəri 100 faiz ödənilib.

“Azərişıq” ASC-nin sədri “Azərişıq” ASC-nin “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzləri ilə birgə fəaliyyətdən də danışıb. Bildirib ki, hazırda abunəçilər “ASAN xidmət” və “ASAN Kommunal” mərkəzlərində 10-dan artıq xidmətlərdən yararlana bilirlər.

İclasda “Azərişıq” ASC-nin Texniki Departamentin direktoru Ziyəddin Quliyev, İnkişaf və İnvestisiya Departamentinin direktoru Toğrul Rəhimov, Tədris Mərkəzinin direktoru Vüqar Əliyev, Perspektiv inkişaf və “ASAN xidmət”lə iş idarəsinin rəisi Elsevər Rüstəmli, “Azərişıq” ASC-nin Şimal, Şimal-Qərb, Aran, Mərkəzi-Aran RETSİ-lərinin rəisləri də görülən işlərlə bağlı hesabat veriblər.

# “SOCAR Polymer”in yüksək sıxlıqlı polietilen qurğusu sentyabrda işə düşəcək

“SOCAR Polymer” layihəsi üzrə yüksək sıxlıqlı polietilen qurğusu bu il 20-24 min ton məhsul istehsal edəcək.

Bu barədə “SOCAR Polymer” MMC-nin planlama şöbəsinin müdiri Vüqar Aslanov deyib.

“Yüksək sıxlıqlı polietilen qurğusu üzrə işlərin ümumilikdə 87 faizi icra edilib. Qurğu cari ilin sentyabr ayında işə düşəcək. Gələn ildən isə zavodda illik 120 min ton yüksək sıxlıqlı polietilen istehsalı nəzərdə tutulur”, - deyə o əlavə edib.

# Neft Fondu indiyədək “Azəri-Çıraq-Günəşli” layihəsindən 130 milyard dollar qazanıb



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) 2001-ci ilin əvvəlindən bu il fevralın 1-dək Xəzərin Azərbaycan sektorundakı “Azəri-Çıraq-Günəşli” (AÇG) neft-qaz yataqları blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində 129 milyard 137 milyon ABŞ dolları gəlir əldə edib.

ARDNF-nin ictimaiyyətlə əlaqələr departamentindən bildirilib ki, bu ilin yanvar-fevral aylarında isə AÇG layihəsi çərçivəsində Dövlət Neft Fonduna 651,6 milyon dollar vəsait daxil olub.

Həmçinin, bu il yanvarın 29-da Neft Fonduna “Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında” SOCAR ilə xarici hasilat şirkətləri arasında imzalanmış yeni sazişə uyğun olaraq 450 milyon ABŞ dolları həcmində ilk bonus ödənişi həyata keçirilib.

## Mənzillərin və tikinti kooperativlərinin fəaliyyəti bərpa ediləcək



“Azərbaycan Sənaye Korporasiyası” ASC-nin idarəçiliyində olan mənzillərin və tikinti kooperativlərinin fəaliyyəti bərpa ediləcək.

AZƏRTAC xəbər verir ki, bunu “Azərbaycan Sənaye Korporasiyası” ASC-nin baş direktoru Kamran Nəbizadə deyib.

“Kooperativlərin bir şirkətin nəzdində toplanması nəzərdə tutulur. Bu məqsədlə tikilməkdə olan və tikilməsi nəzərdə tutulan mənzillərə daşınmaz əmlak sertifikatlarının buraxılışının tətbiqi istiqamətində aidiyyəti icra hakimiyyəti orqanları ilə müvafiq işlər görülür”, - deyə ASC-nin baş direktoru qeyd edib.

## Azərbaycan pambıq istehsalını xeyli artıracaq



“GTS Agro” şirkəti yaxın illərdə pambıq istehsalını ildə 100 min tonadək artıracaq.

Trend-in məlumatına görə, bunu Azərbaycan Sənaye Korporasiyasının iclası zamanı “GTS Agro” şirkətinin direktoru vəzifələrini icra edən Zakir Əzimov deyib.

O qeyd edib ki, ölkədə pambıq istehsalının artırılması üçün ilk növbədə məhsuldarlığı yüksəltmək lazımdır:

“Bizim qarşımızda növbəti beş il ərzində məhsuldarlığı bir hektar ərazidə indiki 19 sentnerdən 25 sentnerədək artırmaq hədəfi dayanır. Bu, nail olunması mümkün hədəfdir. Məsələn, Türkiyədə məhsuldarlıq bir hektardan 50 sentner təşkil edir”.

Z.Əzimov bildirib ki, ötən il pambıq səpini ölkənin 14 rayonunda həyata keçirilib: “Ümumilikdə, 28,6 hektar səpilib və nəticədə 51,2 min ton pambıq xammalı əldə edilib. Bu, 2016-cı ilin göstəricisindən 1,8 dəfə çoxdur. Bu il biz 35 min hektarda səpin aparmışıq və 70 min ton pambıq əldə etməyi planlaşdırırıq”.

## “Made in Azerbaijan” brendi Moskva sərgisində

Moskvada “Prodexpo 2018” XXV Beynəlxalq Ərzaq, İçki və Xammal Sərgisi açılıb. Sərginin baş sponsoru “Made in Azerbaijan” brendidir. “Eksposentr” mərkəzində keçirilən sərgidə bu il dünyanın 63 ölkəsindən, o cümlədən ABŞ, Böyük Britaniya, Argentina və s. 2000-dən çox şirkətin məhsulları nümayiş olunur. Sərgi zamanı iştirakçılara qeydiyyat zonasında sərginin baş sponsor ölkəsi - Azərbaycan haqqında məlumat verilir. Ölkəmiz sərgidə ilk dəfə “Made in Azerbaijan” milli stendini təqdim edir. Milli ornamentlərlə bəzədilmiş Azərbaycan pavilyonunda ölkəmizdə istehsal edilən, özünün keyfiyyəti və rəqabətqabiliyyətliliyi ilə seçilən meyvə şirələri, müxtəlif növ şərablar, təbii mineral sular, qənnadı məmulatları, çay və sair məhsullar ziyarətçilərə təqdim olunur. Burada quraşdırılmış monitorlarda “Ekspo Baku 2025”-in təbliğat materialları, Azərbaycanın görməli yerləri, təbiəti barədə videoçarxları da nümayiş etdirilir.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) vitse-prezidenti Yusif Abdullayev AZƏRTAC-ın müxbirinə müsahibəsində bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin “Made in Azerbaijan” brendinin təşviqinə dair Fərmanı ölkədə qeyri-neft sektorunun inkişafına yönəlib.

Brendin təşviqat mexanizmlərindən biri də beynəlxalq sərgilərdə milli stendlərin təşkilidir. “Bu sərgilərdə biz Azərbaycan məhsullarını təbliğ etməklə yanaşı, ölkəmizi tanıtmağa, respublikamızın turizm potensialına maraq oyatmağa çalışırıq”, - deyə o bildirib.

Y.Abdullayevin sözlərinə görə, bu il “Prodexpo”da Azərbaycanı 27 şirkət təmsil edir. Sərginin elə ilk günü Azərbaycan şirkətlərinin əksəriyyəti ikitərəfli sazişlər üçün razılıq əldə ediblər.

“Prodexpo 2018” beynəlxalq ərzaq sərgisinin iştirakçıları da Azərbaycan stendində təqdim olunan məhsulları çox bəyəndiklərini söyləyirlər. Qeyd olunub ki, Azərbaycan məhsulları Rusiya bazarında kifayət qədər tanınır və onlara böyük tələbat var.

## AZAL “Cargolux” ilə tarixi əməkdaşlığı müzakirə edib




“Azərbaycan Hava Yolları” QSC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müzakirə “Azərbaycan Hava Yolları” (AZAL) QSC-nin prezidenti Cahangir Əsgərovun Bakıda “Cargolux” yük aviaşirkətinin prezidenti və icraçı direktoru Riçard Forson ilə görüşündə aparılıb.

Görüşdə tərəflər əsası 2001-ci ildə “Cargolux” aviaşirkətinin Heydər Əliyev Beynəlxalq Aeroportuna və əks istiqamətə müntəzəm reyslər yerinə yetirməsi ilə qoyulan yük aviadaşımaları sahəsindəki 17 illik səmərəli əməkdaşlıqdan razılığını bildirib. Aviaşirkətlər arasında əməkdaşlıq 2010-cu ildən 2014-cü ilə kimi “Cargolux” şirkətinin Azərbaycanın “Silk Way Airlines” aviaşirkətinə 3 ədəd “Boeing 747-400F” təyyarəsinin tədarük edilməsini nəzərdə tutan müqavilənin imzalanmasından sonra daha da möhkəmlənib. Hazırda hər iki aviaşirkət arasında əməkdaşlıq, həmçinin “Boeing 747” təyyarələrinə texniki xidmət, bu təyyarənin simulyatorunda heyət hazırlığı və sair nəzərdə tutur.

Cahangir Əsgərovun sözlərinə görə, hazırda Azərbaycan mülki aviasiyası özünü Şərq və Qərbi birləşdirən Böyük İpək Yolu layihəsinin rəsmi aviadaşıyıcısı kimi tanıdıb. Yükdaşımalar bazarında özünü çox yaxşı tanıdan yeni geniş füzelyajlı uzaq magistrallı “Boeing 747-8F” təyyarələrinin istifadəsi bu strategiyanın həyata keçirilməsinin mühüm bir hissəsidir. Eyni zamanda, Cahangir Əsgərov “Boeing” şirkətinin “Boeing 747-8F” təyyarələrinin istehsalı proqramının bağlanması barədə potensial qərarından təəssüfləndiyini bildirib. Belə ki, Azərbaycanın mülki aviasiya üçün yaxın 10 il ərzində 20 ədəd “Boeing 747-8F” təyyarəsinin alınmasına ehtiyac olacaq və bununla da ələqədar olaraq Cahangir Əsgərov bu tipli hava gəmisinin istehsalının davam etdirilməsi üçün “Boeing” korporasiyasına müraciət etməyi təklif edib.

Öz növbəsində Riçard Forson Heydər Əliyev Beynəlxalq Aeroportunda göstərilən xidmətlərin yüksək keyfiyyətindən məmnunluğunu bildirib. O, həmçinin “Boeing 747-8F” təyyarələrinin beynəlxalq aviadaşımalar bazarında özünü çox yaxşı tanıtması ilə razı olduğunu və bu təyyarələrə tələbin hələ də qaldığını qeyd edib.

“AZAL” QSC-nin prezidenti Forsona bildirib ki, onun dəvəti ilə yaxın həftələrdə “Boeing Commercial Airplanes”in prezidenti və baş icraçı direktoru Kevin Makalister Bakıya işgüzar səfərə gələcək. Cahangir Əsgərov Riçard Forsona görüşə qoşulmağı və geniş füzelyajlı yük laynerinin gələcəyini müzakirə etməyi təklif edib.

Qeyd edək ki, “Silk Way Airlines” Avropa, Asiya, Yaxın Şərq və Şimali Amerikada 20-dən çox istiqamətə müntəzəm reyslər yerinə yetirir. Aviaşirkətin donanması müasir və iritutumlu “Boeing 747-8F” və “Boeing 747-400F” yük təyyarələrindən ibarətdir.

Son 10 il ərzində Heydər Əliyev Beynəlxalq Aeroportu yük aviadaşımalarının böyük logistik mərkəzinə çevrilib.

## 12 şəhərdə tullantı sutəmizləyici qurğuların inşası nəzərdə tutulur



Əhalinin içməli su təminatının yaxşılaşdırılması sahəsində işlərin 2018-ci ildə də davam etdirilməsi, içməli sudan əziyyət çəkən kəndlərdə, həmçinin Qazax şəhərində yeni layihələrin, 12 şəhərdə tullantı sutəmizləyici qurğuların inşasına başlanılması nəzərdə tutulur.

“Azərsu” Açıq Səhmdar Cəmiyyətindən Trend-ə verilən məlumata görə, bunu qurumun sədri Qorxmaz Hüseynov “Azərsu”da 2017-ci ilin və “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın dördüncü ilinin yekunlarına həsr olunmuş iclasda deyib.

Q.Hüseynov bildirib ki, hesabat dövründə 1366 km magistral və şəbəkə su xətləri, 382 km kanalizasiya kollektoru və xətləri, 1 içməli və 1 tullantı sutəmizləyici qurğu, 10 su anbarı tikilib, 22 subartezian quyusu qazılıb, 6 nasos stansiyası, 105 min ədəd sayğac quraşdırılıb. Görülmüş işlər nəticəsində Bakı şəhəri və ətraf qəsəbələrdə, eləcə də regionlarda 116min nəfər ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təchiz edilib, 132 min nəfərin su təchizatı fasiləsiz rejimə keçirilib. Bununla da, fasiləsiz içməli su ilə təmin olunan əhalinin xüsusi çəkisi ölkə üzrə 66,9 faizə, Bakı şəhəri üzrə isə 81,5 faizə yüksəlib.

“Azərsu” ASC-nin sədri diqqətə çatdırıb ki, əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə 28 rayonun 170 yaşayış məntəqəsində içməli su layihələri icra edilib. Bakı şəhərinin yağış sularının yığılma təhlükəsi olan ərazilərində səth sularının kənarlaşdırılması üzrə 13 layihənin icrası yekunlaşıb. Zərdab, Hacıqabul və Şamaxı rayonlarında suvarma layihələri icra olunub. Ötən müddətdə şəhərlərin 23-də su və kanalizasiya şəbəkələrinin, 10-da su şəbəkələrinin inşası uğurla başa çatıb. Kənd yaşayış məntəqələrini içməli su ilə təmin etmək məqsədilə əhalisinin sayı 630 min nəfər olan 520 kənddə yeni layihələr icra olunub. 2004-2017-ci illərdə 20-dən artıq su mənbəyi yaradılıb, 1390 km-i magistral olmaqla 9230 km su kəmərləri, ümumi həcmi 530 min kubmetr olan 230 su anbarı tikilib, 300-dən artıq subartezian quyusu qazılaraq istismara verilib. Yeni şəbəkələrin yaradılması, mövcud şəbəkələrin genişləndirilməsi hesabına xidmət göstərilən abonentlərin sayı 60 faizdən çox artaraq 1 mln. 410 minə, sayğaclaşma səviyyəsi isə 77 faizə çatdırılıb.

Abşeron yarımadasının içməli su təchizatının yaxşılaşdırılması məqsədilə məhsuldarlığı saniyədə 6,6 kubmetr olan Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi inşa olunub. Aran bölgəsi sakinlərinin içməli suya olan tələbatını ödəmək üçün 107 km uzunluğunda Şirvan-Muğan, 62 km uzunluğunda Sabirabad-Saatlı qrup su kəmərləri tikilib. Külüllü mənbəyində yaradılmış və məhsuldarlığı saniyədə 450 litr olan sugötürücü qurğurayon mərkəzləri və ətraf kəndləri keyfiyyətli su təminatında müstəsna əhəmiyyət daşıyıb.

“Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Prezident sərəncamına uyğun olaraq 2017-ci ildə 28 rayonun 170 kəndində 535 km su xətləri çəkilib, əhalinin ümumi istifadəsi üçün 1432 bulaq quraşdırılıb. Bununla da içməli sudan əziyyət çəkən kənd əhalisi keyfiyyətli içməli suya çıxış imkanı əldə edib.

2018-ci ildə regionlarda görülən işlər çərçivəsində Ağdaş, Qəbələ, Daşkəsən, Xaçmaz, Xızı, Ağcabədi şəhərlərində su və kanalizasiya şəbəkələrinin, Mingəçevir, Şəmkir, Qax və Astara şəhərlərində su şəbəkəsinin tikintisi yekunlaşacaq. Eyni zamanda, Daşkəsən, Göyçay, Qəbələ şəhərlərində və Bakının Pirşağı qəsəbəsində tullantı sutəmizləyici qurğuların tikintisi yekunlaşacaq.

Əhalinin dayanıqlı və keyfiyyətli içməli su təminatı məqsədilə Bakı şəhərində yenidən qurulacaq Babək prospekti, Mir Cəlal və Təbriz küçələri boyunca su və kanalizasiya xətlərinin yenilənməsi nəzərdə tutulur. “Ağ şəhər”də, Abşeron yarımadasının qəsəbələrində su və kanalizasiya sistemlərinin yaradılması layihələri, eyni zamanda, binadaxili su təchizatı sistemlərinin yenilənməsi və sayğacların quraşdırılması davam etdiriləcək.

## Azərbaycanda 200-dən çox Almaniya şirkəti fəaliyyət göstərir

Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru İqtisadiyyat Nazirliyində olub.

Nazirlikdən Trend-ə verilən məlumata görə, Ticarət Palatasının icraçı direktoru Tobias Baumann ilə görüşdə İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri Ayaz Əliyev Azərbaycan-Almaniya əməkdaşlığının müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb.

Qeyd edilib ki, Azərbaycanda xidmət, nəqliyyat, ticarət, sənaye, tikinti, rabitə, bank və sığorta sahələrində 200-dən çox Almaniya şirkəti fəaliyyət göstərir. Almaniya tərəfindən Azərbaycan iqtisadiyyatına 556 mln. dollar investisiya qoyulub. Bundan başqa, ölkəmizdə həyata keçirilən layihələrdə Almaniya şirkətləri podratçı kimi də iştirak edirlər. İki ölkə arasında iqtisadi əlaqələrin inkiafında 2011-ci ildə yaradılılan Ticarət və İnvestisiyalar üzrə Yüksək Səviyyəli İşçi Qrupun rolu əhəmiyyətlidir.

Aparat rəhbəri diqqətə çatdırıb ki, Azərbaycanın biznes dairələri Almaniyada keçirilən müxtəlif formatlı tədbirlərdə - biznes forumlar, işgüzar görüşlər, sərgilərdə iştirak etməklə iqtisadi əməkdaşlığın genişlənməsinə töhfələr verir. Bu tədbirlərin davamı olaraq, Azərbaycan şirkətləri 7-9 fevral tarixlərində Berlin şəhərində keçirilən «Fruit Logistica 2018» beynəlxalq meyvə-tərəvəz sərgisində iştirak edir, öz məhsullarını nümayiş etdirirlər.

T.Baumann Alman-Azərbaycan Xarici Ticarət Palatasının fəaliyyəti barədə məlumat verib və Palatanın əlaqələrin inkişafında rolunu vurğulayıb. T.Baumann Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxelenin 2018-ci ilin 12-14 fevral tarixlərində Azərbaycana nəzərdə tutulan səfərinin, keçiriləcək ikitərəfli görüşlərin iqtisadi əlaqələrin genişlənməsində əhəmiyyətli olacağını qeyd edib.

Görüşdə T.Baumann Azərbaycanın regionları ilə tanışlıq, burada fəaliyyət göstərən müəssisələrlə alman şirkətləri arasında əlaqələrin yaradılması barədə fikirlərini bildirib.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

## Fərdi jurnalist yazıları müsabiqəsi elan edildi

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə təşkil etdiyi fərdi jurnalist yazıları müsabiqəsin elan edilmişdir.

Mövzusu “Azərbaycan kinosu 120: tarixi, bu günü və gələcək inkişaf perspektivləri” olan müsabiqənin məqsədi Azərbaycan kinosunun 120 illiyi ilə əlaqədar milli kinonun tarixi, bu günü, gələcək inkişaf perspektivləri və gənc kinematoqrafçıların fəaliyyəti haqqında analitik yazılar, eləcə də yeni filmlərə resenziyalar yazan jurnalistlərin yaradıcı əməyini stimullaşdırmaqdır. Müsabiqə elan olunan gündədk ən azı bir il müddətində kütləvi informasiya vasitələrində (qəzet, jurnal, informasiya agentliyi və rəsmi qeydiyyatdan keçmiş internet media resurslarında) fasiləsiz çalışan şəxslər müsabiqədə iştirak edə bilərlər.

Müsabiqəyə təqdim olunan yazılara aid tələblər, yazıların qəbulu qaydaları, qiymətləndirmə meyarları, tələb olunan sənədlərlə www.kivdf.gov.az saytında tanış olmaq olar.

Müsabiqədə:

I yer üçün bir;

II yer üçün iki;

III yer üçün üç yazı qaliblərinin mükafatlandırılması nəzərdə tutulmuşdur.

I yer - 1000 manat;

II yer - 800 manat;

III yer - 600 manat.

Bundan əlavə, 10 yazı müəllifinə həvəsləndirici mükafat (300 AZN) və əlavə olaraq müsabiqədə fərqlənən 10 müəllifə isə hədiyyələr veriləcəkdir.

Qaliblər, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin xüsusi diplomu ilə təltif olunacaqlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# İqtisadi islahatlar və sahibkarlıq

*Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur.*

***Heydər Əliyev***

Bu gün Azərbaycanın bütün sahələrdə əldə etdiyi uğurlar ümummilli lider Heydər Əliyevin yürütdüyü uğurlu siyasi kursun nəticəsidir. Müstəqil Azərbaycan dövlətçiliyinin siyasi-iqtisadi əsaslarını yaradan, müstəqil və güclü dövlət yaratmaq uğrunda qətiyyətli addımlar atan, fenomenal şəxsiyyət kimi əbədiyaşarlıq qazanan Heydər Əliyevin gərgin əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində dövlətimiz dünya məkanında öz layiqli yerini tuta bilmişdir.

Məhz zəngin təcrübəyə və böyük istedada, eyni zamanda, yüksək siyasi idarəçilik və liderlik qabiliyyətinə malik olan ulu öndər Heydər Əliyevin həyata keçirdiyi sosial-iqtisadi strategiya nəticəsində Azərbaycanın hərtərəfli inkişafı, gələcək tərəqqisi üçün möhkəm əsaslar yaradılmışdır. Ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni həyatının bütün sahələri ümummilli liderin adı ilə bağlıdır.

Ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı həyatın bütün sahələrində əsaslı dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə, dövlət müstəqilliyinin əldə olunmasından sonra Azərbaycanda sərbəst bazar münasibətlərinə əsaslanan müstəqil milli iqtisadiyyatın formalaşdırılması istiqamətində ciddi addımlar atıldı. Bu dövrdə bazar iqtisadiyyatına keçid və yeni mülkiyyətin formalaşması prosesinin əsas amillərindən olan özəl sektorun fəaliyyəti üçün də dövlət səviyyəsində mühüm işlər görüldü, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması üçün münbit şərait yaradıldı. Sahibkarlığın inkişafı üçün dövlət səviyyəsində bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin görülməsi, biznes fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması məqsədilə əsaslı islahatların aparılması Azərbaycanda həyata keçirilən inkişaf strategiyasının mühüm tərkib hissəsini təşkil edirdi.

Azərbaycanda sahibkarlığın inkişafı və təşəkkül tapması Heydər Əliyevin gərgin zəhməti sayəsində mümkün olmuşdur. Məhz ulu öndərin uzaqgörən siyasəti nəticəsində mövcud çətin şəraitə baxmayaraq, 1993-cü ildə "Azərbaycanda sahibkarlığın inkişafı (1993-1995)" Dövlət Proqramı qəbul olundu. 1995-ci ildən etibarən ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük uğurlar əldə olundu.



Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının əsas xarakterik cəhəti sahibkarlığın inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin daha yüksək səviyyəsi ilə əlaqədar idi. Bu sahədə xüsusilə qəbul olunmuş bir çox irimiqyaslı dövlət proqramları, konsepsiya və strategiyalarının böyük rolu olmuşdur.

Sahibkarlığın inkişafına təkan verən mühüm tədbirlərdən biri də 1994-cü ilin sentyabr ayında Heydər Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə Bakıda keçirilən "Sahibkarlıq strategiyası və iqtisadi yenidənqurma" mövzusunda beynəlxalq konfrans olmuşdur. Bundan başqa, "Azərbaycanda kiçik və orta sahibkarlığa Dövlət Yardımı Proqramı" (1997-2000-ci illər), "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı" (2002-2005), "Azərbaycan Respublikasında maşınqayırma sənayesinin inkişafının Dövlət Proqramı" (2002-2005-ci illər), "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı" (2002-2006-cı illər), "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" sahibkarlığın inkişafı istiqamətində atılan mühüm addımlardandır.

Ulu öndərin təşəbbüsü və bilavasitə rəhbərliyilə 1995-ci ildən başlayaraq aparılan torpaq islahatları nəticəsində 1350 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanmış, kolxoz və sovxozların yerində fermer təsərrüfatları yaradılmışdı. Aparılan ardıcıl və sistemli iqtisadi islahatların əsasını da elə dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması təşkil edirdi. Ümumiyyətlə isə, Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf konsepsiyasının əsasını həyata keçirilən iqtisadi islahatlar nəticəsində respublika iqtisadiyyatında sabitliyin yaradılması və sosial-iqtisadi inkişafda müsbət meyillərin formalaşdırılması təşkil edirdi.

Sahibkarlığın inkişafı sahəsində Heydər Əliyevin atdığı ən mühüm addımlardan biri də bu sahəyə ciddi dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi oldu. Mövcud problemlərin həlli üçün qısa müddətdə kompleks tədbirlər həyata keçirildi və qeyd olunan sahə ilə əlaqədar qanunvericilik sahəsində bir sıra dəyişikliklər edildi. 1996-cı il iyunun 17-də "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin fərmanı, o cümlədən "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 02 sentyabr 2002-ci il tarixli fərmanı bu qəbildəndir.

Ulu öndərin rəhbərliyi dövründə dövlət əmlakının özəlləşdirilməsinin birinci mərhələsi də yekunlaşmış, ikinci özəlləşdirmə proqramının həyata keçirilməsinə başlanılmışdı. Bu proqram çərçivəsində nəqliyyat, rabitə, kimya, maşınqayırma, yanacaq-energetika kompleksi müəssisələri özəlləşdirildi. Ölkədə həyata keçirilən özəlləşdirmə prorqamının nəticəsi olaraq, artıq 1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisə özəlləşdirilmişdi. 1997-ci ildən sonra isə böyük özəlləşdirmə - orta və iri dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi prosesinə başlanıldı. Statistik göstəricilərdən də məlum olur ki, təkcə 1998-ci ildə 800-dən çox orta və iri dövlət müəssisəsi səhmdar cəmiyyətinə çevrilmişdi.

Sahibkarlığın mühüm rolunu nəzərə alan ümummilli lider milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışırdı. Heydər Əliyevin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərlə daim maraqlanması və onların aradan qaldırılması istiqamətində ciddi tədbirlər görməsi nəinki sahibkarlığın, özəl bölmənin inkişafına şərait yaradır, eyni zamanda, sahibkarların hərtərəfli stimullaşdırılmasına da səbəb olurdu.

Heydər Əliyevin siyasi-iqtisadi kursunu uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev ötən illər ərzində milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək, ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir. Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi ilə uğurla həyata keçirilən iqtisadi siyasət nəticəsində respublikanın iqtisadi inkişafı son illərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Post-neft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə sahibkarlar üçün əlverişli imkanlar yaradılmışdır. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində mühüm işlər görülür ki, bunun da əsasını regionların inkişafı ilə əlaqədar həyata keçirilən dövlət proqramları təşkil edir. Azərbaycan Respublikasında 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına, eyni zamanada, ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli təsir göstərmişdir.

Prezident İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq etdiyi "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə əsas hədəflərdən biri kimi 2025-ci ildə adambaşına qeyri-neft ixracının ən azı 450 ABŞ dollarına çatdırılması müəyyənləşdirilib ki, bu da azı üç dəfədən çox artım deməkdir. Bu nailiyyətlərin qazanılmasında Azərbaycan sahibkarlarının rolu isə xüsusi qeyd edilməlidir. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası da hazırda qeyri-neft sektorunun inkişafı istiqamətində ölkənin özəl sektorunda sağlam qüvvələrin birləşməsi əsasında öz işini qurur, sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsini genişləndirir, günün tələblərinə cavab verən mövzular üzrə treninqlər, seminar, konfranslar keçirir və sahibkarların hüquq və vəzifələrinin qorunması istiqamətində ciddi tədbirlər görür.

Görülən işlər nəticəsində yüksək texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələr açılıb, yerli tələbatın ödənilməsi ilə bərabər, bir sıra istiqamətlər üzrə ixrac potensialı güclənməyə başlayıb. İndiyədək təkcə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilmiş güzəştli kreditlər hesabına 51 logistik mərkəzin, 23 taxıl anbarının, 16 meyvə-tərəvəz emalı, 20 iri fermer, 23 müasir heyvandarlıq, 56 istixana, 16 üzümçülük, 23 bağçılıq və 39 quşçuluq təsərrüfatının, 10 süd emalı, digər istehsal müəssisələrinin yaradılması, son illərdə istixanaların ərazisinin dəfələrlə genişləndirilməsi aqrar sektorda ixracın artırılmasına böyük töhfə verir.

Ölkədə sahibkarlığın inkişafına verilən qiymətin nəticəsi olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən hər il aprelin 25-i Azərbaycanda "Sahibkarlar günü" kimi təsis edilmişdir.

**Mətanət Hüseynova**

## Almaniya Azərbaycan iqtisadiyyatına 556 milyon dollar investisiya yatırıb

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann ilə görüşdə İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri Ayaz Əliyev Azərbaycan-Almaniya əməkdaşlığının müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb. Qeyd edilib ki, Azərbaycanda xidmət, nəqliyyat, ticarət, sənaye, tikinti, rabitə, bank və sığorta sahələrində 200-dən çox Almaniya şirkəti fəaliyyət göstərir. Almaniya tərəfindən Azərbaycan iqtisadiyyatına 556 milyon dollar investisiya qoyulub. Bundan başqa, ölkəmizdə həyata keçirilən layihələrdə Almaniya şirkətləri podratçı kimi də iştirak edir.

Diqqətə çatdırılıb ki, iki ölkə arasında iqtisadi əlaqələrin inkişafında 2011-ci ildə yaradılan Ticarət və İnvestisiyalar üzrə Yüksək Səviyyəli İşçi Qrupun rolu əhəmiyyətlidir. Aparat rəhbəri diqqətə çatdırıb ki, Azərbaycanın biznes dairələri Almaniyada keçirilən müxtəlif formatlı tədbirlərdə - biznes-forumlar, işgüzar görüşlər, sərgilərdə iştirak etməklə iqtisadi əməkdaşlığın genişlənməsinə töhfələr verir. Bu tədbirlərin davamı olaraq, Azərbaycan şirkətləri fevralın 7-9-da Berlin şəhərində keçirilən "Fruit Logistica 2018" beynəlxalq meyvə-tərəvəz sərgisində iştirak edir, öz məhsullarını nümayiş etdirirlər. Alman-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann təmsil etdiyi qurumun fəaliyyəti barədə məlumat verib və palatanın əlaqələrin inkişafında rolunu vurğulayıb.

O, Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Volfqanq Büxelenin bu il fevralın 12-14-də Azərbaycana nəzərdə tutulan səfərinin, keçiriləcək ikitərəfli görüşlərin iqtisadi əlaqələrin genişlənməsində əhəmiyyətli olacağını qeyd edib.

Tobias Baumann Azərbaycanın regionları ilə tanışlıq, burada fəaliyyət göstərən müəssisələrlə alman şirkətləri arasında əlaqələrin yaradılması barədə fikirlərini bildirib.

## Azərbaycanın "Tac" şirkəti Rusiya bazarına "Gülüstan" limonad və mineral suları ixrac edəcək

Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində keçirilən "Prodexpo 2018" Beynəlxalq Ərzaq Sərgisində Azərbaycanın "Made in Azerbaijan" vahid ölkə stendi və burada nümayiş olunan məhsullar ziyarətçilər və tədbirdə iştirak edən xarici şirkətlər tərəfindən maraqla qarşılanır.

Sərginin ilk günündə Azərbaycanın "Tac" şirkəti Rusiya bazarına "Gülüstan" limonadı və mineral sularının ixracına dair müqavilə imzalayıb. Bundan başqa, Azərbaycan şirkətlərinin istehsal etdiyi şərab, qurudulmuş xurma, günəbaxan yağı, sərinləşdirici içkilər və s. məhsulların sərgidə iştirak edən Çin, Qazaxıstan, İsrail, Tayvan və Səudiyyə Ərəbistanına ixracına dair danışıqlar aparılır.

Qeyd edək ki, fevralın 9-dək davam edəcək "Prodexpo" Beynəlxalq Ərzaq Sərgisində Azərbaycan ilk dəfə olaraq qida və içkilər pavilyonlarında "Made in Azerbaijan" vahid ölkə stendləri ilə təmsil olunur. Pavilyonlarda Azərbaycanın 27 şirkətinin istehsal etdiyi meyvə şirələri, müxtəlif növ şərabları, təbii mineral suları, fındıq, qənnadı məmulatları, çay, quru meyvə və s. məhsulları nümayiş olunur. Vahid ölkə stendinin təşkili xərcləri dövlət büdcəsi hesabına ödənilir.

## Sənayedə yerli xammaldan istifadə etməklə idxalı əvəz edən istehsal genişləndirilir



Fevralın 6-da İqtisadiyyat Nazirliyinin dəstəyi, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, "Sumqayıt Kimya Sənaye Parkı" MMC və "SOCAR Polymer" MMC-nin birgə təşkilatçılığı ilə "Sənayedə yerli xammala əsaslanmaqla idxalı əvəz edən istehsalın genişlənməsi" mövzusunda konfrans keçirilib.

"Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş tədbirlərin icrasına həsr olunan konfransda mütəxəssislər, sahibkarlar, elmi-tədqiqat institutlarının və universitetlərin nümayəndələri iştirak edib.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov dövlət başçısının rəhbərliyi ilə sənayenin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi ilə bağlı sistemli tədbirlərin həyata keçirildiyini və bu sahədə proqram xarakterli sənədlərin qəbul olunduğunu, "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın uğurla icra edildiyini vurğulayıb. Bildirilib ki, son illərdə müasir texnologiyalara əsaslanan sənaye müəssisələri fəaliyyətə başlayıb və ixrac potensialı yüksəlib. Nazir müavini "Azərbaycanda ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş hədəflər üzrə 2017-ci ildə görülmüş işlər, eləcə də 2018-ci ildə həyata keçiriləcək tədbirlər barədə məlumat verib, sənayedə yerli istehsalın dəstəklənməsi məqsədilə yerli xammaldan səmərəli istifadənin önəmini diqqətə çatdırıb.

Sonra konfrans öz işini təqdimatların dinlənilməsi ilə davam etdirib.

Tədbirdə "SOCAR Polymer"in şöbə müdiri Vüqar Aslanov müəssisənin istehsal edəcəyi məhsulların sahibkarlar tərəfindən xammal kimi istifadə imkanları barədə təqdimatlarla çıxış edib, yeni sahibkarlıq subyektlərinin yaranmasında, iş yerlərinin açılmasında, ixrac potensialının genişlənməsində müəssisənin əhəmiyyətini vurğulayıb.

# Fitch повысило прогноз по кредитному рейтингу Азербайджана




Международное рейтинговое агентство Fitch повысило прогноз по долгосрочному рейтингу в иностранной и национальной валюте Азербайджана с «негативного» на «стабильный». Как сообщает АЗЕРТАДЖ со ссылкой на информацию агентства, рейтинг подтвержден на уровне «BB +».

# В Азербайджане восстановят крупный алюминиевый завод



В Азербайджане планируется восстановить и заново запустить крупный алюминиевый завод, сказал в среду генеральный директор Азербайджанской промышленной корпорации Камран Набизаде в ходе заседания структуры.

По его словам, речь идет о Гянджинском алюминиевом заводе.

"Целью является организация производства первичной и конечной алюминиевой продукции. Это позволит увеличить конкурентоспособность данной сферы и экспортный потенциал", - сказал Набизаде.

# Глава BP о проекте "Шах Дениз-2"

Проект "Шах Дениз-2" - второй этап развития азербайджанского газоконденсатного месторождения "Шах Дениз" - будет запущен в 2018 году, сказал глава британской компании British Petroleum (BP) Боб Дадли на пресс-конференции в Лондоне.

По его словам, "Шах Дениз-2", являющийся частью мегапроекта "Южный газовый коридор", является одним из наиболее сложных проектов когда-либо реализованных BP.

"В проекте задействованы шесть стран, 11 компаний-акционеров, а со дня принятия окончательного инвестиционного решения четыре года назад было отработано 176 миллионов человеко-часов", - сказал Дадли. Глава BP отметил, что проект находится на пути к запуску в 2018 году. "Шах Дениз-2" реализуется в настоящее время согласно расписанию и в рамках бюджета", - сказал Дадли.

# Мобильная Зубная Клиника «Azercell» продолжает оказывать бесплатные услуги




Мобильная зубная клиника «Azercell Telecom» успешно продолжает функционировать. Клиника обнародовала итоговый отчет о своей деятельности за 2017 год. Согласно отчету, в прошлом году 552 человека, являющиеся сиротами и нуждающимися в помощи, были обследованы с последующим лечением. В январе 124 ребенка из школы-интерната № 10 в поселке Пиршаги воспользовались услугами Мобильной зубной клиники. За февраль и март врачи клиники обследовали 50 учеников средней школы Зангеланского городка. В апреле и мае 102 ребенка из Детской деревни SOS в поселке Ахмедлы смогли воспользоваться услугами профессиональных стоматологов. А в июне врачи клиники оказали бесплатную медицинскую помощь 47 пациентам в Организации инвалидов Ясамальского района. За июль, август и сентябрь 139 человек из социального учреждения «Дом выпускника» в Абшеронском районе воспользовались данной услугой. В октябре врачи клиники, посетившие школу-интернат № 3 для глухонемых детей в Низаминском районе, привлекли к обследованию и лечению 35 человек. Также в октябре врачи клиники оказали услуги в школе-интернате интеграционного обучения № 11 в Сабунчинском районе. В школе-интернате обследование прошли более 56 человек.

Мобильная зубная клиника, которая нацелена оказывать помощь детям-сиротам, живущим не только в Баку, но и в регионах, до сегодняшнего дня оказала медицинские услуги детям по всей стране, включая школы-интернаты и детские дома в городах Шеки, Губа, Гусар, Лянкяран, Лерик и Балакан, Детскую деревню SOS и школу-интернат в Гяндже, лагеря вынужденных переселенцев и школу-интернат в Билясуваре.

Стоит отметить, что с учетом отсутствия отдельной стоматологической службы в большинстве детских домов Азербайджана, «Azercell Telecom» оснастила Мобильную зубную клинику самым современным медицинским оборудованием.

За годы своей деятельности врачами Мобильной зубной клиники были обследованы тысячи людей, часть из которых прошли лечение при необходимости.

# Азербайджанская AS Group Investment привлекает китайские инвестиции




В Пекине подписан договор о сотрудничестве по реализации проекта "Апшерон Агропарк" между азербайджанской компанией AS Group Investment и крупной китайской компанией China CAMC Engineering Co., Ltd.

Согласно достигнутому соглашению, CAMCE привлечет 140 миллионов долларов в проект "Апшерон Агропарк". Договор о сотрудничестве был подписан учредителем AS Group Investment Шахином Мовсумовым и президентом China CAMCE Co., Ltd. Луо Янем. Стороны встретились в рамках международной конференции, посвященной Транскаспийскому транспортному маршруту, составной части инициативы торгово-транспортного коридора «Пояс и путь». Конференция проходит 6-7 февраля в Пекине с участием представителей Китая, Казахстана, Азербайджана, Грузии и Турции.

В рамках визита учредитель AS Group Investment Шахин Мовсумов также провел встречу с вице-президентом одной из крупнейших государственных групп компаний China National Machinery Industry Corporation Ltd (SINOMACH) Лиу Джин Зенгом, в которую входит компания China CAMCE Co., Ltd. В ходе встречи обсуждались вопросы совместного сотрудничества.

«Апшерон Агропарк» является проектом, включающим в себя цепочку от производства, сортировки, упаковки, хранения до логистики фруктов и овощей. 150 гектаров территории агропарка составляют теплицы, из которых на 10 гектарах уже осуществляется производство томатов и клубники. Теплицы оборудованы самым современным оборудованием. При полной эксплуатации агропарка будет задействовано более 3500 человек.

Фрукты и овощи, выращиваемые в поселке Говсаны, предназначены не только для внутреннего рынка, а также для экспорта в страны СНГ, Персидского залива и в Европу.

Тем самым агропарк способствует успешному развитию ненефтяного сектора, определённого приоритетным сектором экономики главой государства, и дополнительно развивает экспорт и узнаваемость бренда Made in Azerbaijan.

# Страны СНГ вошли в топ 15 по количеству туристов в Абу-Даби

Согласно статистическим данным Департамента культуры и туризма Абу-Даби, в 2017 году эмират посетило более 40 тысяч туристов из России, что в два раза превышает показатели 2016 года. За весь год россияне провели в эмирате 198 208 ночей, что также рекордно превышает данные 2016 года на 84% (107 569). В декабре туристический поток из России вырос на 154% с 2 396 до 6 096 человек по сравнению с аналогичным периодом 2016 года. Примерно с таким же результатом в 130% был зафиксирован рост ночевок: в декабре 2017 их число составило 25 778 (11 230 ночей в декабре 2016).

Положительные результаты по турпотоку также зафиксированы и по другим странам: так в 2017 году в Абу-Даби отдыхало в два раза больше туристов из Латвии (2 786 в 2017 году и 1 184 в 2016) и Эстонии (2 340 в 2017 и 1 137 в 2016); на 62% вырос турпоток из Грузии (2 199 в 2017 и 1 360 в 2016) и на 28% из Узбекистана (5 601 в 2017 и 4 392 в 2016). Поток туристов из Украины сохраняет положительную динамику (+11% в 2017 к 2016) по-прежнему занимают второе место среди рынков СНГ по количеству туристов, отдыхающих в Абу-Даби (12 327 в 2017 и 11 076 в 2016).

Эдуард Григорьев, директор офиса DCT – Abu Dhabi в России и СНГ так комментирует положительные результаты 2017 года: «Только за последний год ОАЭ упростили или отменили визовые процедуры для граждан Китая, России и Украины. Данное решение поддержало наметившийся в конце 2016 года тренд на рост числа туристов из России и ключевых рынков пост-советского пространства и позволило нам закончить 2017 год с показателями более 100 000 туристов со всех наших рынков, где Россия является несомненным лидером. В 2017 году около 5 млн. туристов со всего мира посетило Абу-Даби. Россия и страны СНГ входят в Топ 15 по количеству туристов в Абу-Даби, но самое главное, наши соотечественники одни из тех, кто проводит больше всего времени в стране с показателем около 5 ночей в среднем. Это ставит нас на вершину чартов по продолжительности пребывания в стране, за это нас любят отельеры.".

Напомним, что эмират Абу-Даби с каждым годом увеличивает свою туристическую привлекательность. Это уже давно не просто деловой центр Эмиратов или морской курорт, а полноценное туристическое направление с высокоразвитой инфраструктурой и длинным списком достопримечательностей, который в прошлом году пополнился еще одним уникальным объектом – Лувром Абу-Даби. В этом году ожидается открытие еще одного масштабного проекта - тематического парка Warner Bros. World Abu Dhabi на острове Яс.

# Приобретайте телефон в магазинах «Azercell Exclusive» и получите ПОДАРОК!

*Лидер рынка мобильных коммуникаций Azercell Telecom запускает в магазинах «Azercell Exclusive» подарочную кампанию для абонентов, желающих приобрести новый телефон на выгодных условиях. Таким образом, каждый клиент, приобретая какой-либо мобильный телефон в магазинах «Azercell Exclusive» в рамках кампании, получит в первый месяц БЕЗЛИМИТНЫЙ интернет-пакет, либо БОНУС в виде 1000 внутрисетевых минут, в зависимости от своего выбора.*

Стоит отметить, что магазины «Azercell Exclusive» предоставлены в пользование абонентов в Баку (пр-т Бюльбюля, 5, пр-т Гара Гараева, д. 3042, кв. 52), Хырдалане (пр-т Гейдара Алиева, ул. Мехти Гусейна, 54), Мардакане (пос. Мардакан, ул. С. Есенина, 92/2, кв. 30) и Губе (пр-т Гейдара Алиева, 194). В данных магазинах, оснащенных самым современным оборудованием и организованных в соответствии с новой концепцией «Nordic», абоненты могут изучить, сравнить и протестировать желаемую продукцию. В то же время абоненты получают возможность приобрести различные аксессуары, устройства, поддерживающие мобильные технологии, а также мобильные телефоны в кредит и за наличные средства.

«Azercell Telecom» приглашает всех своих абонентов принять участие в этой выгодной кампании.



# "Çirkli pulların yuyulması" dövlət gəlirlərinin artırılması imkanlarını məhdudlaşdırır

"Çirkli pulların yuyulması" məqsədilə daşınmaz əmlakın alınması nadir hadisə deyil. Bir çox biznesmenlər kapitalı leqallaşdırmaq üçün məhz bu üsuldan istifadə edirlər. "Çirkli pulların yuyulması" pulların kölgə iqtisadiyyatından rəsmi iqtisadiyyata köçürülməsidir. Bu, qanunsuz əldə olunmuş vəsaitlərdən açıq istifadə etməyə imkan verir. Proses belədir: cinayət yolu ilə əldə olunmuş pullar (terrorizm, korrupsiya və s.) xarici dövlətlərdə yerləşən bankların hesablarına köçürülür və oradan biznes yatırımlarına çevrilərək leqal pul görüntüsü verir.

"Çirkli pulların yuyulması" gəlirlərin həqiqi mənbəyini gizlədir, real sövdələşmələr saxta sövdələşmələr ilə əvəz olunur, sənədlər saxtalaşdırılır. Eyni zamanda, 3-cü şəxslərin sənədlərindən istifadə olunur. "Çirkli pulların yuyulması" prosesində ofşorlardan geniş istifadə olunur, çünki bank sistemində benefisarların anonimliyi və məxfiliyi təmin edilir.

Son illər bir çox xarici təşkilatlar "çirkli pulların yuyulmasına" və vergilərdən yayınma hallarına qarşı ciddi tədbirlər görürlər.

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının səyləri**

2014-cü ildə İƏİT üzv ölkələrin iqtisadiyyatının şəffaf olması üçün vergilərdən yayınma sxemlərinə əks təsir edən bir sıra təşəbbüslər irəli sürmüşdür.

İƏİT-ə AB-nin əksər dövlətləri də olmaqla 34 dövlət daxildir. Rusiya Federasiyası hələ bu təşkilata üzv olmasa da, İƏİT-in əksər təşəbbüslərinə qoşulur və onun planlarını hissə-hissə yerinə yetirir.

2014-2015-ci illərdə cəmi 15 tədbir nəzərdə tutulmuşdur. Onlar əsasən aşağıdakıları əhatə edir:

-Pulların yuyulması problemini rəqəmsal iqtisadiyyat çərçivəsində həll etmək (elektron ticarət, marketinq, internet bankinq);

-Beynəlxalq səviyyədə korporativ vergilərin uyğunlaşdırılmasını razılaşdırmaq. Bu, o deməkdir ki, şirkətlər müxtəlif ölkələrin vergi qanunvericiliyindən istifadə edərək, vergi bazasını eyni xərclərə görə azalda və gəliri vergiqoymadan yayındıra bilməzlər;

- Ziyanlı vergi təcrübəsinə qarşı əks təsir edilməsi.

İkili vergiqoymadan uzaqlaşma müqavilələrinə ziyanvurmanın aradan qaldırılması (məsələn, güzəştlərdən istifadə etmək və vergi ödəməmək üçün imtiyazlı şirkətlərin yaradılması). Belə güman edilir ki, transmilli şirkətlər fəaliyyət göstərdiyi hər biznes sahəsində vergi yurisdiksiyasında gəlirlərinin, mənfəətinin, aktivlərinin həcmi haqqında informasiya açıqlamalıdır. TMŞ-lər vergi orqanlarına qlobal səviyyədə əməliyyatları, eləcə də qiymətqoyma siyasəti barədə informasiya verməlidir. Bu məlumatlar master-fayl şəklində digər aid olan ölkələrin vergi orqanlarına çatdırılmalıdır, yəni əlçatan olmalıdır.

**Bazar səviyyəsində transfert qiymət əmələgəlmədə qiymətlərin uyğunlaşdırılmasını təmin etmək.** İri holdinqlər gəlirlərini iqtisadi fəaliyyət apardığı sahədə deyil, digər yurisdiksiyada sənədləşdirə bildiyi üçün transfert qiymətəmələgəlmənin qaydalarından istifadə etmək imkanı əldə edə bilirlər. Bu imkanları aradan qaldırmaq üçün qaydalar yaradılmışdır.

**Vergi inzibatçılığının şəffaflığını yaxşılaşdırmaq.** Beynəlxalq holdinqlər üçün üç təbəqəli hesabat təklif edilir (əsas, lokal sənədləşmə və şirkətlərin bütün ölkələrdə fəaliyyəti haqqında).

**Hərtərəfli sənəd hazırlayaraq BEPS-planının (Base Erosion and Profit Shifting) tez yerinə yetirilməsini təmin etmək.**

**"Öz müştərini tanı" proseduru -** dünyanın bir çox bankları bu prinsiplə işləyirlər (know your customer). Beləliklə, onlar şübhəli gəlirlərin leqallaşması və ya terrorizmin maliyyələşdirilməsi ilə bağlı sövdələşmələrin riskini azaldırlar. Bank pulların cinayət məqsədilə istifadə olunmamasından əmin olmaq üçün pul vəsaitlərinin mənbələri ilə maraqlanır.

Məhz bütün Avropada olduğu kimi, İspaniyada da hesab sahibi pul vəsaitlərinin mənbəyini təsdiq etməlidir, əks halda onun hesabı blok edilə bilər. Pul vəsaitlərinin mənbəyini tələb etmək İspaniyada 1993-cü ildə qəbul edilmiş "Çirkli pulların yuyulmasının dayandırılması haqqında" Qanunla (Normativa de prevencion del blanqueo de capitales) əsaslandırılıb.

Hər 2 ildən bir rezidentlər və qeyri-rezidentlər qeydiyyatdan tutmuş bank hesabına qədər bütün şəxsi məlumatlarını təzələməlidirlər. Bunu hamı, həm Avropa və həm də Asiya vətəndaşları etməlidirlər.

Son il "Öz müştərini tanı" prinsipi üzrə tələblər xeyli mürəkkəbləşmişdir. Sanksiyalara görə, bəzi rusların xarici banklarda maliyyə əməliyyatlarında çətinlik yaranmışdır. "RosBiznesKonsalt"dan verilən məlumata görə, 2014-cü ildə xarici banklar kapital bazarının rusiyalı iştirakçılarından sənədlər tələb etməyi artırmışlar. Demək olar ki, hər iri xarici bankda müştərinin sanksiyaya düşüb düşməyəcəyini izləyən belə bir bölmə var. Bu ciddiləşmə xarici iqtisadi fəaliyyət göstərən və xarici hesabı olan bir çox rusiyalı rezidentlərə aid oldu. Banklar əlavə olaraq, müştərinin şirkətdə işləmədiyini göstərən sanksiyalar altında olduğunu təsdiqləyən sənədlər tələb edə bilərlər. Əvvəllər hesab açılması zamanı "Öz müştərini tanı" proseduru bir ay davam edirdi. İndi isə bu prosedur 3 aydan çox ləngiyir. "RBK" yazır ki, bu yaxınlarda xarici banklardan biri rusiyalı şəxsə, onun Kipr şirkətinin hesabına 7 000 dollar köçürülməsindən imtina etmişdi. Keçən il alman bankı rusiyalı şəxsin Kiprdəki kompaniyalardan birinə köçürülməli olan hesabındakı 15000 dolları dondurdu. Bank bu vəsaitlərin Ukraynanın cənubunda baş verən konfliktlərin maliyyələşdirilməsinə sərf olunmayacağını təsdiq etməyi tələb edirdi. Daha bir hadisə bu yaxınlarda baş vermişdi: xarici banklardan biri tərəfindən rusiyalı şəxsə siyasi partiyanın maliyyələşdirilməsində iştirakına görə imtina edildi.

**Britaniya üsulu ilə pulların yuyulması ilə mübarizə**

Böyük Britaniya kapitalın çıxarılması baxımından ən populyar ölkələrdən biridir. Bununla belə, burada şübhəli kapitalla mübarizəyə qarşı ciddi qanunlar fəaliyyət göstərir.

Ölkədə 1,5 milyon trastlar var. Onlar miras prosedurlarını asanlaşdıran və vergiqoymanı optimallaşdıran prosedurlardan istifadə edirlər.

Maliyyə transaksiyaları bəzən pulların yuyulması üçün tipik əlamətlərə malik olmaya bilər, bununla belə, Britaniya qanunları buna "çirkli pulların" yuyulması kimi baxa bilər. Bundan başqa, Böyük Britaniyada 1 günə bankda hesab açmaq mümkün deyil. Bank müştərini 1 həftə ərzində yoxlayır. Bir çox Rusiya Kütləvi İnformasiya vasitəsi xəbər verir ki, sanksiyaların təsiri ilə Britaniya bankları rus kapitalının mənbələrinin yoxlanılması prosedurlarını mürəkkəbləşdirmişdir. 2015-ci il fevralın əvvəlində banklar rusiyalı müştərilərinə vəsaitləri necə və haradan əldə etmələrini izah etmək üçün məktubla müraciət etmişdilər. Onlardan nəinki pul mənbələrinin qanuni olması, həmçinin iqtisadi sanksiyalarla bağlı qərbdə qara siyahıya düşən rusiyalı fiziki və hüquqi şəxslərlə əmanətçilər arasında əlaqələrinin olması haqqında izahat verilməsi tələb olunmuşdur.

Bankda hesab açarkən hər zaman müştərilərin xaricdən pul köçürülərkən pulların mənbəyini təsdiqləyən, notarial təsdiq olunmuş vergi sənədləri və ya daşınmaz əmlakın satılması haqqında təqdim olunan müqavilələri yoxlanılır. "RBK" məlumatına görə sanksiyalardan sonra banklar təkrar olaraq due diligence edirlər. Bu təkrar yoxlama proseduru Böyük Britaniyada olan bütün rusiyalıların hesablarına aid deyil. Adətən, belə sorğular bir neçə 10 milyon dolları olan və yüksək riskli müştərilərə aid edilir. FATF standartlarına görə, yüksək riskli müştərilərə siyasətçilər, məmurlar, yüksək hərbi rütbəlilər, dövlət şirkətləri, top menecerlər, eləcə də onların yaxınları və qohumları aiddir.



Transparency İnternationaldan verilən məlumata görə, Londonda olan təxminən 37 000 daşınmaz obyekt Britaniya Vircinya adalarında, Gernsidə, Cersidə, Men və digər yerlərdə qeydə alınmış ofşor şirkətlərə məxsusdur.

Ölkədə "çirkli pulların" yuyulması və terrorizmin maliyyələşdirilməsi ilə mübarizəyə yönəldilmiş 5 qanunvericilik aktı fəaliyyət göstərir. Bu qanunlara görə, çirkli pulların yuyulması 14 il həbs və cərimə ilə cəzalandırılır ki, cəriməni hakim təyin edir. Bank əməkdaşı və ya investisiya kompaniyasının əməkdaşı bütün şübhəli transaksiyalar haqqında məlumat verməlidir. Əks təqdirdə onu cərimə və 7 il həbs gözləyir. Əgər şirkətin direktoru şübhəli sövdələşmələri izləmək prosedurunu təşkil etməyibsə, ona 2 il həbs və cərimə düşür.

Digər ölkələrdən fərqli olaraq Britaniyada "çirkli pulların" yuyulması ilə bağlı hüquq pozuntuları nəinki ciddi cinayət sayılmır, həmçinin Böyük Britaniya sistemində yoxlanılan vəsaitlərin ölçüsündə məhdudiyyət yoxdur.

Müştəriləri lazımi qədər yoxlamayan banklar nəinki öz reputasiyaları, həm də maliyyəsi ilə risk edirlər. Məsələn, 2014-cü ilin avqustunda ABŞ-da Britaniya bankı "Standard Chartered"ı cərimə etdilər. Çünki o, iranlı müştəriləri ilə şübhəli transaksiyalara son qoymurdu.

Eyni zamanda, "The Times" 2015-ci ildə yazırdı ki, Londonun elit "The London City İsland" yaşayış kompleksindəki çoxmərtəbəli binalardakı mənzillərin sahiblərinin əksəriyyəti xaricilərdir. Məsələn, yaşayış kompleksindəki yeni istifadəyə verilən 29 mərtəbəli, 289 mənzilli binada mənzillərin cəmi ikisi Böyük Britaniya vətəndaşına məxsusdur. Bu binadakı qalan mənzillər Çin, Yaponiya, Zimbabve, Azərbaycan da daxil olmaqla 18 xarici ölkənin vətəndaşları tərəfindən alınıb.

Bildirilir ki, Londonda mənzil alan oliqarxlar və xarici məmurlar onları əsasən Britaniya Vircin adalarında qeydiyyatdan keçmiş bir sıra ofşor şirkətlərin adlarına rəsmiləşdirirlər. Bu səbəbdən onların əsl sahibinin kimliyini bir çox hallarda müəyyənləşdirmək mümkün olmurdu. Yeni qanunlara görə isə, Londonda dəbdəbəli mülklərə və mənzillərə sahib olanların öz kimliklərini gizlətmək qadağandır.

Britaniya hakimiyyəti ötən həftə qüvvəyə minmiş və mütəşəkkil cinayətkarlığa, korrupsiyaya qarşı mübarizəni nəzərdə tutan yeni qaydalar əsasında da oliqarxları hədəfə alacaq. Böyük Britaniya ərazisində dəbdəbəli həyat tərzi keçirən və korrupsiyada şübhəli sayılan zəngin xarici vətəndaşlar bu sərvətin mənbəyini əsaslandırmalı olacaqlar. Virtualaz.org yazıb ki, bu barədə Britaniyanın təhlükəsizlik naziri Ben Uolles "The Times"ə bildirib.

Məlumata görə, bu qaydalar Böyük Britaniyanın nəzarət orqanlarına 70 min dollardan yuxarı dəyəri olan şübhəli aktivlərin sahibinin həmin pulun mənbəyini lazımi qaydada izah etməyənə qədər əmlaka həbs qoymağa imkan verir.

Bildirilir ki, bu yoxlamalar Rusiya, Çin və Yaxın Şərqdən olan investorlara tətbiq ediləcək. Söhbət Londonda daşınmaz əmlaka milyard dollar sərmayə qoyan oliqarxlardan gedir. Ben Uolles qeyd edib ki, Rusiyadan xarici banklar, o cümlədən Britaniya bankları üzərindən on milyardlarla dollarlar xaricə çıxarılıb.

Britaniyanın mütəşəkkil cinayətkarlıq üzrə Milli agentliyinin məlumatına görə, bu ölkə üzərindən hər il orta hesabla 127 milyard dollar "yuyulur". Lakin agentlik bu rəqəmi də aşağı sayaraq ehtimal edir ki, Britaniya ofşorları üzərindən yuyulan çirkli pulların məbləği bundan da çox ola bilər.

**Rusiya Federasiyasında vəziyyət necədir?**

Global Financial İntegrity beynəlxalq təşkilatının qiymətləndirməsinə görə, Rusiya Çindən sonra dünyada əsas qeyri-leqal maliyyənin "təminatçısıdır". 2012-ci ildə Rusiyadan qeyri-leqal vəsaitlərin axını 123 milyard dollar, 2003-2012-ci illərdə təxminən 1 trl. dollar məbləğində olmuşdur.

Rusiya Mərkəzi Bankının məlumatlarına əsasən, 2014-cü ildə Rusiyadan təmiz kapital axını 150 mild dollar həyata keçirilmiişdir ki, bu da 2013-cü ildəkindən təxminən 2,5 dəfə çoxdur (61 mlrd.). Daha çox maliyyə axını payızda olmuşdur ki, bu da Rusiyaya görə növbəti sanksiyaların tətbiq edilməsi ilə əlaqədar olmuşdur.

2014-cü ildə uzaq xarici ölkələr arasında ən çox Rusiyadan İsveçrəyə (10,3 mlrd.), ABŞ-a (4 mlrd.), Böyük Britaniyaya (3,9 mlrd.) dollar vəsait köçürülmüşdür.

Rusiyada 2001-ci il 07 avqustdan "Cinayət yolu ilə əldə olunmuş və terrorizmin maliyyələşməsindən gələn gəlirlərin leqallaşmasına (yuyulması) qarşı əks tədbirlər haqqında" 115-F3 Federativ qanun fəaliyyət göstərir. Bu qanuna görə, 600 000 rubldan çox istənilən əməliyyat haqqında və dəyəri 3 milyondan çox daşınmaz əmlak sövdələşməsi haqqında bank əməkdaşları daşınmaz əmlak agentliyinə, sığorta şirkətinə və ya rosfinmonitorinqə məlumat verməlidir. Onlar, həmçinin maliyyə əməliyyatları haqqında məruzə etməyə məcburdurlar. Hüquqşünas Çabalina "Tranio" deyir ki, əgər ÇXDR və ya İranla qiymətli kağızlar əməliyyatı, köçürmə və ya hesablara köçürmə, kredit təklifi və alınması olubsa, bu haqda məlumat verməlidirlər. Bundan başqa, qanun banklarda pasportsuz hesab açmağı, eləcə də 30 000 rubldan çox pul köçürməyi, 15 000 rubldan çox valyuta almağı qadağan edir.

Rusiyada pulların yuyulması Rusiya Federasiyası Cinayət Məcəlləsinin 174.1 maddəsi ilə cinayət hesab olunur. Maksimal cəzaya 7 il azadlıqdan məhrumetmə, 1 mln. rubl cərimə daxildir. Cəza hər iki tərəfə şamil olunur: həm alan və həm də satan məsuliyyətə cəlb olunur. Rusiyada xarici kapitalların çıxarılması istiqamətində yeni tədbirlər fəaliyyətə başlayır. Nəzarətdə olan Xarici Şirkətlər haqqında qanuna görə, 2015-ci il yanvarın 1-dən sahibkarlar özlərinin xaricdə olan aktivləri haqqında informasiya verməli, xaricdə toplanan gəlirindən vergi ödəməlidirlər. NXŞ – bu, Rusiya Federasiyasının vergi rezidentləri olmayan fondlar, trastlardır ki, onların nəzarətediciləri də Rusiya rezidentləridir. İri rus biznesmenlərinin çoxu holdinq şirkətlər vasitəsilə aktivlərə sahibdirlər. Məsələn, Forbes xəbər verir ki, V.Potanin 8 Kipr şirkəti vasitəsilə Norilsk Nikelinin səhmlərinə malikdir. M.Fridman Lüksemburqda qeydiyyatdan keçən strukturlar vasitəsilə Alfa bankın səhmlərinə malikdir. Qanunla problem olmaması üçün biznesmenlərin çoxu xaricdə daha çox vaxt keçirməyə çalışırlar ki, rus rezidenti olmasınlar. Qeyri-rezidentlərə isə qanun aid deyil. Beləliklə, Timçenko və Kontor İsveçrədə, Baturina Londonda vergi verirlər.

**Əziz Əzizov,**
**UNEC-in dissertantı**

# Beynəlxalq qrant müsabiqəsinin qalibləri - UNEC alimləri

UNEC alimlərinin layihəsi II Azərbaycan-Belarus beynəlxalq qrant müsabiqəsinin qalibi olub. Müsabiqəni Elmin İnkişafı Fondu ilə Belarus Respublika Fundamental Tədqiqatlar Fondu təşkil edib. "Belarus və Azərbaycan Respublikalarının daxili bazarlarında kompleks texnoloji məhsulların irəlilədilməsi üçün birgə sənaye klasterlərinin formalaşdırılması" mövzusuna həsr edilən layihənin rəhbəri UNEC-in "Marketinq" kafedrasının müdiri, professor Telman İmanov, icraçıları isə "Biznesin idarə edilməsi" kafedrasının professoru Rəşad Muradov ilə "İqtisadiyyat" (rus dilində) kafedrasının dosenti Leyla Hacıyevadır. Humanitar və ictimai elmlər sahəsi üzrə təqdim olunan fundamental-tətbiqi xarakterli layihənin məqsədi Azərbaycan və Belarus respublikalarının daxili bazarlarında kompleks texnoloji məhsulların irəlilədilməsi üçün birgə sənaye klasterlərinin formalaşdırılması və fəaliyyəti üzrə iqtisadi mexanizmi işləyib hazırlamaqdır. Tədqiqat işinin elmi əhəmiyyəti hər iki ölkənin ticarət əlaqələrinin daha da genişləndirilməsinə motivasiyanın yaradılması və bu ölkələrin iri müəssisələri üçün inkişaf strategiyasının işlənib hazırlanmasıdır. Tədqiqatın nəticələrindən hər iki ölkənin dövlət idarəetmə orqanları faydalana bilər.



# "Açıq qapı" günləri UNEC-in şəffaf universitetə çevrilməsində mühüm rol oynayıb"

UNEC-də qış imtahan sessiyası ilə bağlı sonuncu "Açıq qapı" günü keçirilib.

"Açıq qapı" günündə rektor, professor Ədalət Muradovla birlikdə UNEC İctimai Nəzarət Şurasının üzvləri - "XXI Əsr" Təhsil Mərkəzi İctimai Birliyinin rəhbəri Etibar Əliyev, Parlament Jurnalistləri Birliyinin sədri, Modern Media Qrupunun baş direktoru Elşad Eyvazlı və "525-ci qəzet"in müxbiri Sevinc Qarayeva da iştirak edib.

"Açıq qapı"ya daxil olan müraciətlər əsasən imtahan nəticələrinin yüksəldilməsi və intizam qaydalarının pozulması ilə bağlı olub. Qəbulda, həmçinin UNEC-in rektorunun hər ayın birinci şənbə günü keçirilən "Açıq qapı" günündə iştirak edən vətəndaşların da müraciəti dinlənilib. Müraciətlərin bir çoxu yerində həllini tapıb, bir sıra məsələlərlə bağlı isə qaydalara uyğun zəruri tədbirlərin görülməsi barədə aidiyyatı strukturların rəhbərlərinə tapşırıqlar verilib. Qəbuldan sonra qış imtahan sessiyasının təşkili ilə bağlı fikir mübadiləsi aparılıb. E.Əliyev sessiya dövründə Şura üzvlərinin prosesi yaxından izlədiklərini bildirərək, imtahanlarda şəffaflığın təmin edilməsi və obyektivliyin qorunması istiqamətində həyata keçirilən tədbirləri yüksək qiymətləndirib. E.Eyvazlı sessiya dövründə xüsusi olaraq rektorun hər həftə müraciətləri dinləməsini müsbət hal adlandıraraq, "Açıq qapı" günlərinin UNEC-in şəffaf universitetə çevrilməsində mühüm rol oynadığını bildirib. S.Qarayeva isə UNEC-in "Qaynar xətt" xidmətinin fəaliyyətinə diqqət çəkərək, yalnız sessiya boyunca deyil, il ərzində tələbələrin qarşılaşdıqları hər hansı bir problemlə bağlı müraciət edə biləcəkləri xidmətin olmasını müsbət dəyərləndirib.

# "1001" gecə



Mətbuat kənardan cəzbedici görünsə də, çox ağır və kəşməkəşli sahədir. Və bu sahədə çalışan insanlar, peşə sahibləri, deyərdim ki, çox zəhmət görmüş insanlar olurlar. Bu gün mətbuat çox işıqlı zamanını yaşayır. Azərbaycanda hazırda dövrü nəşrlərin sayı yüzlərlədir. Ancaq bu nəşrlərin içərisində mənə doğma olan bir qəzet var ki, o da **"İQTİSADİYYAT"**-dır. 2000-ci ilin iyulu... Akademik Ziyad Səmədzadə ilə ilk dəfə idi onun iş otağında qarşı-qarşıya əyləşirdim. Həyəcanımı hiss etdi. Çox səmimi şəkildə məni **"İqtisadiyyat"** ailəsinə qəbul etdi. Mən Ziyad müəllimin alim olması ilə yanaşı, çox gözəl və təcrübəli Baş redaktor kimi fəaliyyətini də özümdə kəşf etdim. **"İqtisadiyyat"**ı seçməyimdə Ziyad müəllimdən çox şey öyrənəcəyimə bir daha əmin oldum. Onun zəngin təcrübəsi əsasında qəzetin "ayaqda durub" iri addımlarla addımlamasının şahidi olmaq məni sevindirir və qürurlandırırdı. Qəzetin 1000-ci sayını yaşaması onun və kollektivin zəhmətinin və sevgisinini bariz nümunəsidir. Mən "ailə" ifadəsini boşuna işlətmədim. Həqiqətən də, qəzetin hər bir əməkdaşını o, öz doğmalarından ayırmır. Bu üzdən qəzet mənə çox doğmadır. Bu günlərdə qəzetin 1000-ci sayını vərəqlədim. Çox fərəhləndim, qürurlandım. Kövrəldim. Çünki burada çalışdığım 17 il bir kino lenti kimi gözümün önündən keçdi. Acılı-şirinli, qayğılı, kədərli günlərimiz oldu. Ancaq qəzetə sevgi bunların hamısını dəf etdi. Ziyad müəllim hər zaman bizə möhkəm olmağı, əzmli olmağı aşıladı. Heç zaman imkan vermədik qəzetin bir sayı belə səngisin. Çox maraqlı günlər, anlar yaşadıq **"İqtisadiyyat"**da. Yazsam, roman olar. Kollektivdə çox gözəl, dəyərli insanlar tanıdım. Ad çəkmirəm. Qeyd etmədiklərim inciməsin. Dostluqlar qazandım. 17 ildə Ziyad müəllimin rəhbərliyi ilə maraqlı layihələrə imza atdıq. Tarixə imzamızı yazdırdıq. **"İqtisadiyyat"** qəzetinin bu gün arxivinə baxsaq, çox zəngin və mənalı tarix yaşadığının şahidi olarıq. Bu gün də o tarixi yazmaq üçün qəzet əmin əllərdədir. Qəzetin indiki baş redaktoru olan Aytən xanım ixtisasca qəzetçi olmasa da, fitri istedadı sayəsində qəzetin maraqlı və oxunaqlı çıxması üçün əlindən gələni əsirgəmir. Mən öz növbəmdə öncə mənə doğma olan Ziyad müəllim başda olmaqla, Aytən Səmədzadəni, "İqtisadiyyat" ailəsini, özümü və **"İqtisadiyyat"** oxucularını 1000-ci sayın işıq üzü görməsi münasibətilə təbrik edirəm. İnanıram ki, 1001-ci saydan sonra 1 000 000-cu tirajı görmək oxucularımıza nəsib olacaq. Çünki bu qəzetin digər qəzetlərdən fərqi də ondadır ki, bu qəzetə ürək qoyulur. İsti nəfəs var, çox uzun illər yenə də gənc iqtisadçıların tribunası olan qəzet alimlərin fikir, ideya, elmi məqalələr platforması kimi daim yaşayacaq və inkişafda olacaq... 1000 qaranlıq gecə görmüş **"İqtisadiyyat"**a işıqlı günlər diləyilə....

**Oqtay Oruclu**

# "Müasir kitabxana-informasiya terminləri: qısa izahlı lüğəti"

Bu yaxınlarda "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində Azərbaycan Milli Kitabxanasının " Kitabxanaşünaslıq elmi-tədqiqat" şöbəsinin baş kitabxanaçısı Yeganə Məmmədovanın müəllifi olduğu "Müasir kitabxana-informasiya terminləri: qısa izahlı lüğəti" məlumat kitabı çapdan çıxmışdır. Kitabın İxtisas redaktoru və elmi məsləhətçisi "Biblioqrafiyaşünaslıq" kafedrasının müdiri, dosent, pedaqogika üzrə fəlsəfə doktoru Nadir İsmayılov, rəyçisi isə "Biblioqrafiyaşünaslıq" kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Solmaz Sadıqovadır.

Lüğətdə kitab çapına, kitabxana işinin bütün aspektlərinə və kitabxana-informasiya texnologiyalarına dair daha müasir terminlərin qısa izahı toplanmışdır. Lüğət girişdən, əlifba sırası ilə verilmiş terminlər və ədəbiyyat siyahısından ibarətdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda kitabxanaçılıq sahəsində ilk məlumat kitabı 1986-cı ildə A.Xələfov, R.Kazımov, E.Bədəlov tərəfindən hazırlanmış "Kitabxana işçisinin məlumat kitabı"olmuşdur. Kitab əsasən kitabxana işçiləri, ali və orta ixtisas müəssisələrində kitabxanaçı kadrların hazırlanması üçün nəzərdə tutulan ümumi kitabxanaçılıq terminlərini əhatə etmişdir.

İnformasiya texnologiyalarının dinamik inkişaf etdiyi müasir dövrümüzdə yeni sözlər və terminlər meydana gəlməkdədir. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsi-




nin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər əlanının 2.6.15 bəndinin icrası ilə əlaqədar olaraq Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2010-cu ildə "Kitabxana-informasiya terminlərinin qısa lüğəti" çap olunmuşdur. Lüğətdə kitabxana-informasiya sahəsində ənənnəvi və yeni terminlər (392 söz) Azərbaycan və rus dillərində toplanmışdır.

2015-ci ildə Azərbaycan Milli Kitabxanası tərəfindən ilk fundamental məlumat kitabı olan "Azərbaycan kitabxana ensiklopediyası" çap olunmuşdur ki, burada da kitabxana-informasiya sahəsinə aid çoxsaylı terminlərin izahı və s. materiallar toplanmışdır. 2016-cı ildə isə Milli Kitabxana "İnnovativ kitabxana-informasiya xidməti" sorğu kitabçası nəşr etmişdir. Sorğu kitabında kitabxanalarda həyata keçirilən innovativ fəaliyyət metodları, yeni xidmət növləri, elektron resurslar və proseslər haqqında qısa məlumat (60 söz) verilmişdir. Kitabçada göstərilən bəzi sözlər (20 söz) "Kitabxana-informasiya terminlərinin qısa lüğəti"ində də öz əksini tapmışdır (məsələn, biblioqrafik xidmət, elektron əlfəcin, elekton poçt, elektron sənəd və s.).

İstifadəçilərə təqdim edilən "Müasir kitabxana-informasiya terminləri: qısa izahlı lüğəti"-nin sadalanan digər tərtib işlərindən fərqi ondan ibarətdir ki, bu, sorğu kitabçası deyildir. Lüğətin əsas özəlliyi ondadır ki, burada kitab çapına, kitabxana işinin bütün aspektlərinə və kitabxana-informasiya texnologiyalarına dair elmə təqdim edilmiş yeni terminlərin (183 söz) qısa izahı öz əksini tapmışdır. Bunlardan yalnız bəziləri (5 söz) "İnnovativ kitabxana-informasiya xidməti" sorğu kitabçasında da göstərilmişdir.

"İnnovativ kitabxana-informasiya xidməti" sorğu kitabçasında bunlardan yalnız bir neçəsinə (5 söz) "Kitabxana-informasiya terminlərinin qısa lüğəti"ində rast gəlmək mümkündür. Kitabda terminlər lüğətlərin tərtibi metodikasına əsasən əlifba sırası ilə düzülmüş və izahı verilmişdir. Lüğət kitabxana sahəsində fəaliyyət göstərən bütün mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

Ümumiyyətlə, bu lüğət Azərbaycan kitanxanaşünaslıq elminə yeni bir töhfədir.

**B.A.Ələsgərov,**
**Beynəlxalq Nobel İnformasiya Mərkəzinin vitse prezidenti, tarix elmləri doktoru**

# Reklam elanlarının bədii tərtibatı

**(əvvəli ötən sayımızda)**

**Reklam kompozisiyasının qurulmasının əsas prinsipləri və üsulları**

Reklam kompozisiyasının qurulmasının əsas prinsipləri aşağıdakılardan ibarətdir:
- **bütövlülük** – kompozisiyasının elementlərinin vəhdəti;
- **tarazlılıq** – daxili sakitliyin hiss olunmasına aparan kompozisiyanın elementlərinin balanslılığı;
- **proporsionallıq** – elementlərin kəmiyyət xarakteristikalarının uyğunluğu, yaxud mütənasibliyi;
- **tabe olma** – kompozisiya elementlərinin qavranılması ardıcıllığını müəyyən edən bu elementlərin məna iyerarxiyası;
- **aksent** – kompozisiyanın bir elementinin dominantlıq etməsi.

İndi bu prinsiplərin ayrı-ayrılıqda mahiyyətini izah edək.

**Bütövlülük** prinsipi dedikdə, kompozisiyanın bütün elementlərinin qarşılıqlı asılılıqla tamamlanan və qarşılıqlı əlaqəli olması başa düşülür. Bu prinsip aşağıdakı hallarda reallaşmış hesab olunur:
- kompozisiyanın heç bir hissəsi bütöv üçün zərər vurmadan götürülə bilməz;
- kompozisiyanın hissələrinin bütöv üçün zərər vurmadan yerlərinin dəyişilməsi mümükün deyil;
- heç bir yeni element bütöv üçün zərər vurmadan birləşə bilməz.

Bütövlüyə nail olma üsulları:
- şriftin vahid qarniturundan istifadə edilməsi;
- reklam xəbərinin vahid rəng qammasından istifadə edilməsi;
- təcrid olunma prinsiplərindən istifadə olunması (reklam perimetri boyunca yerləşən baş məkan sahələrinə görə elementlər arasında daxili məkanı ötməlidir);
- vahid çərçivədən istifadə olunması (xarici sərhədlər eyni qalınlığa, eyni rəngə, eyni konfiqurasiyaya malik olmalıdır).

**Tarazlıq** məkan oxlarının ətrafında elementlərin balanslılığıdır. Nail olma üsullarına aiddir:
- formal – müəyyən oxlarla əlaqədar elementlərin simmetrik yerləşməsi;
- şaquli ox – sanki sonsuz, asan, yuxarıya can atan kimi qəbul olunur;
- diaqonal ox – dinamika, inkişaf, tərəqqi, analitik aktuallıq, dəyişkənlik kimi qəbul olunur;
- qeyri-formal - simmetriya yoxdur, lakin kompozisiyada elementlərin görmə tarazlığına nail olunmuşdur;
- tünd elementlər açıqdan iri və ağır görünür; xırda-xırda olan bütövdən asandır;
- qeyri-adi konfiqurasiya tipikə nisbətən böyük diqqət tələb edir;
- rəngli element qara və ağ rəngə nisbətən daha çəkicidir.

**Proporsionallıq** kompozisiyanın elementlərinin kəmiyyət xarakteristikasının uyğunluğu və mütənasibliyi reklamda ayrı-ayrı elementlərin ölçülərinin nisbətinə riayət edilməsi zəruriliyidir.

Məsələn, təbii qavrama şablonlarına uyğun olaraq, insan gözü soldan sağa, yuxarıdan aşağıya təsviri qəbul edir. Bu zaman aşağıdakı iyerarxiyaya riayət olunur:
- ölçülər - iridən xırdaya;
- ton - tünddən açığa;
- rəng - rənglidən rəngsizə;
- intensivlik - az intensivlikdən çox intensivliyə;
- yenilik - qeyri-adidən tipikə.

**Aksent** kompozisiyanın başlıca elementlərinin seçilməsidir ki, bu, onun məna mərkəzi hesab olunur. Yaxşı reklam, bir qayda olaraq, yaxşı kompozisiyaya malikdir. Reklamda əhəmiyyətli rol balansa (tərtibatda tarazlığa) xasdır. Reklamda çox zaman qeyri-formal balansdan (mütləq simmetriyanın pozulmasından) istifadə olunur.

Praktikada müəyyən edilmişdir ki, göz üçün yuxarıdan səhifənin gözdən keçirilməsinə başlanılması təbii sayılır. Reklam üzrə amerikalı mütəxəssis Stefan Qeyker tərəfindən səhifədə diqqətin bölgüsünün aşağıdakı sxemi verilmişdir (səhifənin müxtəlif yerlərində reklamın qavranılması, faizlə ifadə olunmuşdur):

61%

39% və ya ətraflı 41% 20%

25% 14%

Qrafik rəssam, adətən, oxucunun və ya tamaşaçının diqqətinin istiqamət üsullarından istifadə edir. İllüstrasiyada müxtəlif göstərici üsullar tətbiq edilir. (əvvəl ox şəkli ilə, şəkildən baxan insanın gözləri ilə, şriftin xətti ilə və s).

Oxucunun və ya tamaşaçının diqqətini şəkilin ayri-ayrı elementinin və ya şəkillərin özünün ritmik təkrar edilməsinin köməyilə saxlamaq olar. Çox zaman reklam müraciəti reklamın əsas ideyasını dolduran elementlərlə yüklənir. Buna görə də, həmçinin illüstrasiyada reklamı ikinci dərəcəli, doldurma detallarından təmizləyərək bir başlıca element kimi ayırmaq olar.

Müasir reklamda çox zaman ağ məkan diqqətin cəlb edilməsinin səmərəli vasitəsi kimi tətbiq olunur.

Bir çox reklam elanları şəkillə və ya illüstrasiya ilə istifadə oluna oluna bilər. Lakin daha çox fotoqrafiyaya üstünlük verilir. Bu, onunla izah olunur ki, fotoqrafiya şəkilə nisbətən əmtəə haqqında daha düzgün və təbii təsəvvür verir, eləcə də şəkillə müqayisədə fotoqrafiya nisbətən ucuz başa gəlir.

Şəkillərdə və fotoqrafiyalarda rəngdən istifadə edilməsində meyillər dürüst müəyyən edilmişdir.



***Reklamda rənglərdən istifadə olunması***

Reklamda rəngdən istifadə olunması "təbii rənglər dairəsi" qaydalarına uyğun olaraq həyata keçirilir.

Rəngin əmələ gəlmə qanunauyğunluqlarına əsasən aşağıdakılar ayrılır:
- əsas rənglər (digər rənglərin qarışığını almaq olmaz):
- göy;
- qırmızı;
- sarı;
- birinci qaydada qarışıq rənglər:
- bənövşəyi;
- narıncı;
- yaşıl;
- ikinci qaydada qarışıq rənglər:
- qırmızı-bənövşəyi;
- qırmızı-narıncı;
- narıncı-sarı;
- sarı-yaşıl;
- göy-yaşıl;
- göy-bənövşəyi.

Dairədə bir-birinə qarşı duran rənglər təzadlı ahəngdar uzlaşma verir. Yol verilən ahəngdar uzlaşmalar üçbucaqların zirvəsidir:
- rənglərin uyğun gələn uzlaşmaları:
- qırmızı-göy;
- narıncı-mavi, yaşıl, bənövşəyi;
- sarı-göy;
- yaşıl-qırmızı, bənövşəyi;
- rənglərin əlverişli uzlaşmaları:
- qırmızı bənövşəyi;
- narıncı-sarı;
- göy-yaşıl;
- yaşıl-narıncı.

Benuaya görə rəng insanların ifadəsindən və optik sistemindən başqa, onların fiziki vəziyyətinə və təsir göstərir. Məsələn: qırmızı rəng stimullaşdırıcıdır, qan təzyiqini, nəfəsalma ritmini, cinsi aktivliyi artırır, istilik hissiyyatı yaradır, lakin artıq olması psixikada pozğunluq doğura bilər. Yaşıl rəng sakitləşdiricidir, qan təzyiqini azaldır, kapilyarları genişləndirir, yorğunluğu götürür. Göy rəng ağır və darıxdırıcıdır, qan təzyiqini aşağı salır, nəfəsalma tezliyini, nəbzi azaldır, həddən artıq sakitləşdirir, soyuqluq hissi doğurur.

**(davamı var)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# Azərbaycan "2018 İqtisadi Azadlıq" indeksində irəliləyib

Azərbaycan "2018 İqtisadi Azadlıq" indeksində bir pillə irəliləyərək, 180 ölkə arasında 67-ci yerdə qərarlaşıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən bildirilib ki, Heritage Foundation tərəfindən hazırlanan hesabatda son on il ərzində həyata keçirilən davamlı iqtisadi islahatlar nəticəsində Azərbaycan ümumi orta hesab üzrə regional və dünya göstəricilərindən üstün olaraq, Asiya-Sakit Okean regionunda 43 ölkə arasında 14-cü yerdə müəyyənləşdirilib. Bundan əlavə, sözügedən indeks üzrə Azərbaycan Fransa, İtaliya və Yunanıstan kimi inkişaf etmiş ölkələr ilə müqayisədə ön sıralarda yer tutub. Həmçinin, Rusiya da daxil olmaqla bir sıra MDB ölkələrini qabaqlayıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ayaz Çaparlı bildirir ki, Azərbaycanın "2018 İqtisadi azadlıq indeksi", "İnklüziv İnkişaf indeksi 2018", "2018 Doing Business" və "Qlobal Rəqabətlilik İndeksi"ndə mövqeyinin gücləndirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü, dərin və köklü iqtisadi islahatlara beynəlxalq qiymətdir.

A.Çaparlı əlavə edib ki, İqtisadi azadlıq indeksi 4 əsas indikator olmaqla, 12 altindikatora əsasən formalaşır. "Qanun Aliliyi", "Dövlət payı", "Səmərəli tənzimləmə" və "Bazarların açıqlığı" əsas indekslər (indikatorlar) olmaqla ölkələrin reytinqini formalaşdırır. Qeyd olunan əsas indikatorlar üzrə isə müəyyənləşdirilən əsas altindikatorlara mülkiyyət hüquqları, hökumət bütövlüyü, məhkəmə effektivliyi, dövlət xərcləri, vergi yükü, fiskal sağlamlıq, biznes azadlığı, əmək azadlığı, pul azadlığı, ticarət azadlığı, investisiya azadlığı və son olaraq maliyyə azadlığı aid olunur. Hər bir altindikator indeks üzrə reytinqdə bərabər xüsusi çəkiyə malikdir.

"Qanunun Aliliyi" indikatoru üzrə təyin olunan hər üç altindikator istiqamətində Azərbaycan irəliləyiş əldə edib ki, bu da Azərbaycanın İqtisadi Azadlıq indeksi reytinqində bir pillə yüksəlməsində mühüm əhəmiyyət kəsb edir. Həmçinin, digər indikatorlar üzrə də artım müşahidə olunur. Bunlara misal olaraq, dövlət xərclərində inkişaf qeyd olunub və son üç il ərzində dövlət xərclərinin ÜDM-in 36,8 faizini təşkil etməsi müəyyənləşdirilib.

Eyni zamanda, vergi yükü altindikatoru üzrə azalma qeyd olunub və ümumi vergi yükü ümumi gəlirin 15 faizini təşkil edir. Fiskal sağlamlıq altindikatoru dünya orta göstəricilərini üstələyərək, 95,5 faiz səviyyəsində müəyyənləşdirilib.

## ETİBARSIZDIR

Dadaşov Kitabulla Əhəd oğlunun adına Maştağa qəsəbəsi, Ax. Ş.Hüseyn küçəsi, döngə 1, ev 7 ünvanına verilmiş qeydiyyat vəsiqəsi, texniki pasport və şəhadətnamə itdiyi üçün etibarsız sayılsın.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500